# DÜŞÜNƏN İNSAN

№ 14- Oktyabr 2012 - 2 AZN



# Texnologiya Təbiəti Təqlid Edir

- Hz. Mehdinin (ə.s) çıxış zamanı
- Cəmiyyətdəki narahatlığın qaynağı: dedi-qodu
- İnsan üzündəki barkod sistemi
- Uşaqlara Allahı tanıtmağın əhəmiyyəti
- Mahnı sözlərində gizlənən mənfi mesajlar

## 3 FİLM HƏDİYYƏ

**Kommunizmin qanlı tarixi**
**I və II hissələr**

# HARUN YƏHYA KİTABLARI İNDİ DAHA UCUZ QİYMƏTƏ




2.70 AZN | 2.80 AZN | 2.80 AZN | 2.50 AZN | 3.30 AZN




2.50 AZN | 3 AZN | 5.75 AZN | 2.70 AZN




3.20 AZN | 5.75 AZN | 3.10 AZN | 3.40 AZN

GLOBAL PUBLISHING

**SİFARİŞ ÜÇÜN:**
**globalkitab@gmail.com**
**Tel: (077) 381 61 91**




## www.dushuneninsan.com

Artıq bütün əvvəlki sayların məqalələrini rahatlıqla oxuya bilər. Jurnalı PDF formatında yükləyə bilərsiniz.

facebook.com/dusunen.insan.jurnali

DÜŞÜNƏN İNSAN - Oktyabr 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91 ; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat No 3418

DÜŞÜNƏN İNSAN

# içindəkilər



Paris Luvr muzeyində İslam incəsənəti bölməsi açılıb 3
Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 6
Forma hafizəsinə malik metalların həyatımızdakı rolu 11
Boş və faydasız şeylərdən necə üz çevirmək olar? Nələr boş və faydasızdır? 23
Texnologiya təbiəti təqlid edir 24
Xəsislik etmək var-dövlət toplamaq Quran əxlaqına uyğun deyil 28















# içindəkilər



Uşaqlara Allah'ı tanıtmağın əhəmiyyəti 38
Heyvanların ancaq vəhşi cəhətlərini göstərən kanallar bir növ darvinist təbliğat aparırlar 42
Allah'ın isimlərindən biri: Müvafi 45
Qulaqdakı qızıl nisbət eşitməni necə asanlaşdırır 46
Mahnı sözlərndə gizlənən mənfi mesajlar 52
Şeytanın xüsusiyyətləri 57
İbrətamiz hadisələri unutmamaq 58
Bir ayə, bir açıqlama 63
Fosillər təkamülü təkzib edir 64






















# Paris Luvr muzeyində İslam incəsənəti bölməsi açılıb

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa Respublikasının Prezidenti Fransua Olland həmin mərasimdə iştirak ediblər.

Tədbirdə çıxış edən Luvr muzeyinin baş direktoru Anri Luerett bildirdi ki, Fransa bütün mədəniyyətlərin, o cümlədən İslam incəsənətinin qorunub saxlanmasına böyük diqqət göstərir. Bu baxımdan Luvr muzeyi hazırda mədəniyyətlərarası dialoqun əldə olunmasında mühüm rol oynayır. Yeni zallar isə İslam sivilizasiyasının mühüm cəhətləri ilə tanış olmaq imkanı yaradır.

Fransa Prezidenti Fransua Olland çıxış edərək bildirdi ki, rəsmi Paris Luvr muzeyində İslam incəsənəti departamentinin yaradılmasından və bu zəngin kolleksiyanı təqdim etməkdən şərəf hissi duyur. Fransa dövlətinin başçısı bildirdi ki, bu layihənin həyata keçirilməsində əsas məqsəd Luvrun universallığını və bəşəri əhəmiyyətini göstərmək, Fransanın İslam sivilizasiyasına münasibətini nümayiş etdirməkdir. Fransua Olland bu layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə, Azərbaycan Prezidenti İlham Əliyevə və digər tərəfdaşlara minnətdarlığını bildirərək dedi:

“Mən xeyirxahlıq nümayiş etdirərək lazımi anda yardımını göstərmiş şəxslərə, xüsusilə də Azərbaycan Respublikasının Prezidentinə və digər ali qonaqlara dərin təşəkkürümü bildirmək istəyirəm. Onlar bizim çoxsaylı tərəfdaşlarımızdandırlar. Onlar Fransanın dostlarıdırlar. Onlar bu layihəyə çox böyük yardım ediblər. Ümid edirəm ki, bu xeyirxahlıq gələcəkdə də davam etdiriləcəkdir”.

Fransa Prezidenti diqqətə çatdırdı ki, bu layihə sivilizasiyalar arasında dialoqun əldə olunmasına töhfə verməklə yanaşı, muzeyə gələnlərə Şərqi daha yaxşı tanımaq, Avropa və İslam mədəniyyəti arasındakı uyğunluqları müəyyən etmək üçün şərait yaradır.

Sonra qonaqlar Luvr muzeyinin İslam incəsənəti bölməsi ilə tanış oldular. Bildirildi ki, bu bölmənin yaradılması muzeyin tarixində xüsusi bir mərhələdir. Həmin bölmə İslam sivilizasiyasının arxitektura, rəssamlıq və digər mədəni yaradıcılıq nümunələrini təcəssüm etdirir. Muzeydəki İslam incəsənəti bölməsi müxtəlif müsəlman ölkələrinin mədəniyyətlərinə aid yaradıcılıq nümunələrindən ibarətdir. Burada şüşədən, keramikadan və metaldan hazırlanmış müxtəlif dulusçuluq əşyaları, xalçalar, geyimlər, miniatürlər də daxil olmaqla, 5 mindən çox bütöv incəsənət nümunələri, mindən artıq natamam və zədələnmiş yaradıcılıq işləri sərgilənir. Muzeyin bölməsində İslam tarixinin müxtəlif dövrlərində mövcud olmuş dövlətlərə aid sənət əsərləri də saxlanılır.

# İslam Dünyasında

## İslama inanmaqla fəxr edirəm

Fransız futbolçu Erik Abidal hz. Muhəmmədi (s.ə.v.) təhqir edən filmə reaksiyasını bildirib

Barselonanın sol müdafiəçisi və Fransa Milli Futbol Komandasının kapitanı fransız futbolçu Erik Abidal hz. Muhəmmədi (s.ə.v.) təhqir edən filmə reaksiyasını bildirib. Abidal İspaniyanın "Marca" qəzetinə verdiyi müsahibədə belə deyib: "Peyğəmbər yaradılmışların ən şərəflisidir. Bu cür ləkələməyə çalışmaq doğru deyil. Mən Muhəmmədin dininə inanmaqla fəxr edirəm."

Təqribən 5 il əvvəl İslamla şərəflənmiş fransız futbolçu daima İslamı müdafiə etməsi ilə diqqət çəkir.



## Katoliklərin ruhani lideri Papa XVI Benedikt ''xristian və müsəlmanların birlikdə və qətiyyətlə şiddətə və müharibələrə qarşı mübarizə aparmaq zamanı gəlib'' dedi

Katoliklərin ruhani lideri Papa XVI Benedikt hər çərşənbə günü keçirdiyi ümumi qəbul görüşündə keçən həftəsonu reallaşdırdığı Livan ziyarəti ilə bağlı məlumat verib.

Livandakı müsəlmanların onu çox səmimi qarşıladığını bildirən Papa görüşlə bağlı müsəlman rəsmilərə təşəkkür edərkən, ''mənə elə gəlir ki, xristian və müsəlmanların birlikdə və qətiyyətlə şiddətə və müharibələrə qarşı mübarizə aparmaq zamanı gəlib'' dedi.

Dinlərarası dialoqun əhəmiyyətinə toxunan Papa ''dünya bu gün artıq daha aşkar və güclü şəkildə dialoq və əməkdaşlığa ehtiyac duyur'' dedi.

Ruhani lideri ifadə etdi ki, Livan digər ərəb ölkələri və eləcə də bütün dünya ölkələri üçün nümunə olmalıdır.



# Keçən Ay

## Bu il həccə 1.8 milyon Müsəlman gedəcək

Səudiyyə Ərəbistanının Həcc naziri Dr. Bender bin Muhammad əl-Həcər bu il həcc üçün 1.8 milyon Müsəlmanın müqəddəs torpaqlara gedəcəyini açıqlayıb.

Nazir Əl-Həcər 2012-ci ildə Səudiyyə Ərəbistanına 5.5 milyon Müsəlmanın ümrə ziyarətinə getdiyini, bunlardan 10 min nəfərin həcc mövsümünü gözlədiyini bildirib.

Bütün hazırlıqların davam etdiyini bildirən nazir həcc mövsümündən sonra Kəbənin genişləndirilməsi işləri ilə bağlı bir müddət ümrə ziyarətlərinin edilməyəcəyi ilə bağlı şayiələri təkzib edib.



## PEYĞƏMBƏRİMİZ (S.Ə.V) HAQQINDA YENİ FİLM ÇƏKİLƏCƏK

"Nur" şirkətinin 450 milyon dollarlıq büdcə ayırdığı film 3 hissədən ibarət olacaq.

Həzrəti Muhəmmədi təhqir edən filmdən sonra Qətərdə bir film şirkəti tərəfindən hz. Muhəmmədin həyatından bəhs edən film hazırlanır.

"Nur" şirkətinin 450 milyon dollarlıq büdcə ayırdığı film 3 hissədən ibarət olacaq. Qətərdə fəaliyyət göstərən filmin prodüseri, "Nur" şirkətinin rəhbəri Əhməd Haşimi Peyğəmbərimizin həyatından bəhs edən və 3 hissədən ibarət 450 milyon dollar büdcəlik filmin ssenarisinin, demək olar ki, hazır olduğunu bildirib.

Haşimi komandanın 2009-cu ildən bəri filmin ssenarisi üzərində işlədiklərini bildirərək hazırlıq mərhələsində texniki və incəsənət problemlərinin öhdəsindən gəldiklərini, ssenarini yekunlaşdırmaq üzrə olduqlarını söyləyib.

Haşimi Hz. Muhaməddin universal mesajını çatdıran və onun şərəfli həyatından bəhs edən filmin son günlərdə ortaya atılan iddialara cavab xarakteri daşıdığını bildirib.



# Elmi-Texnoloji Xəbərlər

## Balıqların qoxu orqanlarında olan kompası



Alman elm adamları alabalıqların qoxu orqanlarında olan “kompas hüceyrələri” sayəsində istiqamətlərini müəyyənləşdirdiyini ortaya çıxardı.

Araşdırma Amerikanın ‘’Proceedings’’ jurnalında dərcedildi. Münihdəki Ludviq Maksimilian Universitetinin elm adamları alabalıqların maqnit “kompas hüceyrələri” sayəsində Dünyanın maqnit sahəsindən istifadə edərək istiqamətlərini müəyyənləşdirdiyini təsbit etdi.

Elm adamları quşların, balıqların, dəniz çanaqlı bağalarının, inəklərin, ceyranların və maralların da maqnit sahəsi vasitəsilə istiqamətlərini müəyyənləşdirdiklərini, ancaq kompas vəzifəsini yerinə yetirən mexanizmin harada olduğunun əvvəl bilinmədiyini söylədi. Araşdırmada istifadə edilən alabalıqların Sakit Okeanın somon balıqları ilə qohum olduğu, onların da okeanda hədəfini itirmədən təxminən 2000 mil yol qət edərək evlərinə çatdığı ifadə edildi.

Ludviq Maksimilian Universitetinin əməkdaşı, araşdırma qrupunun başçısı prof. Michael Winklhofer hüceyrələri qoxu orqanlarının selikli qişasında tapdıqlarını bildirərək, bu hüceyrələrin maqnit dəmiroksid olan maqnetit ehtiva etdiyini təsbit etdiklərini söylədi. Bu maddənin orqanizm tərəfindən necə yaradıldığının hələ bilinmədiyini yazan Winklhofer maqnit sahəsinin bu hüceyrə vasitəsilə sinirlərə çatdırıldığını və bunun sayəsində heyvanın istiqamətini tapdığını açıqladı.

Prof. Winklhofer maqnetit hüceyrələri tapmağın “samanlıqda iynə axtarmağa” bənzədiyini, 10 mində bir hüceyrədə bunlara rast gəlindiyini ifadə etdi.

Münihdəki tədqiqatçılar ilk dəfə alabalığın maqnit dəmiroksid maqnetit ehtiva edən hüceyrələrini təcrid etməyi bacardı və təcrübələrdə bu hüceyrələrin maqnit sahəsinə reaksiya verdiyini sübut etdi.

## Uzun həyatın DNT-si araşdırılır

Amerikalılardan ibarət olan bir qrup 100 yaşlı insanların genetik quruluşunu kəşf etmək üçün təşkil ediləcək 10 milyon dollarlıq X Genomiks mükafatını almaq üçün fəaliyyətə başladı.

Genetika alimi dr. Jonathan Rothberg uzun və sağlam həyatla əlaqəsi olan genləri təyin etmək üçün yarışa qatılır.

DNT sisiləsi tibbi diaqnozlarun təyin edilməsi ilə yanaşı, xəstələrin genetik quruluşuna xas dərmanların yazılmasını da mümkün edə biləcək.





Proyektin fəaliyyətə başlaması üçün yüz yaşı ötmüş yüz adam DNT nümunəsini tədqiqatçılara bağışladı.

Elm adamları çox uzun yaşayan insanları ürək xəstəliyi və ya xərçəng kimi xəstəliklərdən qoruyan nadir genetik dəyişikliklərin olduğuna inanırlar.

Bu genlər yüz yaşını ötən insanların DNT-lərinin analiz edilməsi vasitəsilə təyin olunsa, elm adamları yeni tibbi müalicə üsulları və bəlkə də ömrü uzatmaq üçün araşdırmalar apara biləcəklər.

Ancaq mövcud 3 milyard insan genomundakı nadir genetik dəyişikliklərin təyin edilməsi üçün çox sayda DNT silsiləsi lazım olacaq.

Dr. Rotherbeg yüz nəfərin DNT-sinin “gənclik mənbəyini” tapmaq üçün yaxşı başlanğıc olduğunu söyləyir.

BBC-də müsahibə verən Rotherberg “100 nəfər sizə ipucu verər. Min nəfərlə nəticələrdən əmin ola bilərsiniz. 10 min nümunə isə sizə “Ey, bunlar xərçəng və ya ürək xəstəliyi ilə əlaqədar olan genlərdir” deyə qışqırar”, - dedi.

Dr. Craig Venter genom sekanslama texnikasının qısa müddət ərzində bu qədər inkişaf edəcəyini təxmin edə bilməyəcəyini deyərək, “Texnologiyanın irəliləməsi və xərclərin azalmasından nə qədər təsirləndiyimi izah edə bilmərəm. Kiçik bir maşınla 2 saat ərzində bir insan genomu düzülsə, heyrətamiz olar. Böyük məsafə qət etdik”, - dedi.

X mükafatda toplanan məlumatlar yaşlanma sahəsində araşdırmalar aparan bütün elm adamları ilə paylaşılacaq.

## Türk tədqiqatçıları beyinin bəzi sirlərini üzə çıxardı

Bilkənd Universitetinin tədqiqatşıları beyinin sol yarımkürəsinin bədənin sağ hissəsini, sağ yarımkürəsinin də sol hissəsini idarə etdiyi istiqamətindəki elmi nəzəriyyələrin həmişə etibarlı olmadığını ortaya qoydu.

### Beynəlxalq elmi ictimaiyyətin böyük marağı

Beyinin necə işlədiyini tapmaq üçün elm adamlarının minlərlə ildir təcrübələr apardığını deyən prof. Dr. Ergin Atalar öz təcrübələrindən əldə etdikləri nəticələri belə izah etdi:

‘’Beyinin necə gördüyünü, görüntüləri necə qəbul etdiyini anlamaq üçün bəzi təcrübələr apardıq. Dünyada bu mövzuda çox sayda nəzəriyyə var. Bu təcrübələrdə bəzi nəzəriyyələrin əskik olduğunu müəyyənləşdirdik.



Bu nəzəriyyələrə görə, beyinin iki tərəfi var. Beynin sağ tərəfi bədənimizin sol tərəfində baş verənləri, sol tərəfi isə sağ tərəfində baş verənləri qəbul edir. Məsələn, gözlərinizi dikdiyiniz bir nöqtənin solunda bir şey göstərdiyiniz zaman beyinin sağ tərəfi işləyir. Ancaq apardığımız təcrübələrdə sağ tərəfdə göstərilən bir obyektin beyinin həm sağ, həm də sol tərəfində işləndiyi ortaya çıxdı’’.



# Əsrin Ən Batil Dəccali Sistemi: Darvinizm

Bu gün dünyada din əleyhdarı olan ən böyük fitnələrdən biri materializm və materializmdən törəyən müxtəlif batil ideologiya və cərəyanlardır. Bütün bu cərəyanları əhatə edən, hamısının "əmələ gəlmə və təməli" olan düşüncə isə darvinizmdir. Darvinizm irəli sürüldüyü tarixdən etibarən materialist və din əleyhdarı ideologiya və cərəyanların əsasına çevrilmiş, bu ideologiyaları müdafiə edənlər tərəfindən sanki bir dinə çevrilmişdir. Darvinizmin axırzamanda dəccalın dininə çevriləcəyinə böyük İslam alimi Bədiüzzaman Said Nursi də bu açıqlaması ilə diqqət çəkmişdir:

Təbiətçilik (darvinizm) və materializm fəlsəfəsindən çıxan nəmrudanə (üsyankar) bir cərəyan axırzamanda fəlsəfə vasitəsilə getdikcə yayılaraq güclənəcək, ilahlıq iddia edəcək dərəcəyə çatacaqdır. (Allah'ı tənzih edirik)

Elə Bədiüzzamanın "təbiətçilik (darvinizm) və materializm fəlsəfəsindən çıxan nəmrudanə (üsyankar) bir cərəyan" kimi ifadə etdiyi kimi darvinizm təbiətə müstəqil güc verən, bütün canlıların kor təsadüflərin əsəri olduğunu, yaradılmadığını iddia edən (Allah'ı tənzih edirik), insanları Allah'a imandan uzaqlaşdırmağa çalışan bir təlimdir. Peyğəmbərimizin (s.ə.v) hədislərinin toplandığı və hədislərin açıqlamalarının yer aldığı "Kütubi-Sittə Muxtəsəri Tərcümə və şərhi" adlı kitabda isə bu mövzu belə izah edilmişdir:

Dəccalın yol açdığı axırzaman fitnəsinin ən bariz və ən mühüm vəsfi dinə qarşı olmasıdır. Axırzamanda ortaya çıxacaq bəzi humanist düşüncə tərzi və dəyərlər dinin yerini almağa çalışacaqdır. Bu yeni din insanın üzərində mövcud olan hər cür İlahi hakimiyyəti aradan



qaldırmaq üçün inkarı özünə əsas götürər... Əsas ilahı maddə və insan olan dindənkənar bir dindir. (Allah'ı tənzih edirik)

Darvinistlər təkamül nəzəriyyəsini hər dövrdə saxta dəlillərlə elmi göstərməyə çalışırlar. Canlıların cansız maddələrdən əmələ gəldiyini və təkamül keçirərək inkişaf etdiyini, bütün canlı növlərinin bir-birlərindən mərhələlərlə törədiyini iddia edirlər. Darvinizm bu iddiasının heç bir mərhələsini sübut edə bilməməsinə baxmayaraq, elmi göstərilməyə çalışılan batil inanc sistemidir.

Darvinizmə görə bu xəyali inkişafın ən böyük mexanizmi "təsadüflərdir". Təsadüflər darvinizmin saxta ilahıdır. Darvinistlərə görə bu saxta ilah imkansız olanı gerçəkləşdirmək gücünə malikdir. Darvinistlərə əsasən bu saxta ilah bir qədər palçıqlı sudan canlı hüceyrə meydana gətirir, balığı pələngə çevirir, ayılardan balinaları əmələ gətirir. Darvinistlərə görə bu saxta ilah insanı meymundan törəyən canlı hesab edir, insana ağıl, hafizə, qabiliyyət kimi bacarıqlar verir, yer üzündə heç cür təqlid oluna bilməyən insan şüurunu yoxdan var edir. Belə ki, təsadüflər bütün bunları fantastik şəkildə edərkən necə olursa, planlı, ağıllı davranır, səhv etmir, hətta lazım gəldikdə dərhal tədbir görür. Təsadüfləri bütləşdirmiş bu batil nəzəriyyə ağılsız və məntiqsiz iddiaları ilə hər cür demoqogiya və saxtakarlıqla kütlələrə hakim ola bilmişdir. Bunun səbəbi isə dəccaldır.

Peyğəmbərimizin (s.ə.v) hədislərində bu yalanın mənbəyinin dəccal olduğu bildirilmişdir. Dəccalı təsvir edən bir çox hədisdə müxtəlif bənzətmələrlə tərif edilən xüsusiyyətlər bir ideologiyanın xüsusiyyətləri kimi dəyərləndirildikdə mövzu daha da aydın olur. Buna görə məntiqsiz və əsassız iddialarla üzə çıxan, insanları inkara sürükləyən, din əxlaqından uzaqlaşdıran, insanlar arasında fitnə və qarışıqlıq əmələ gəlməsinə şərait yaradan hər cür ideologiya və düşüncə sistemi dəccalı təmsil edir. Darvinizm hədislərdə tərif edilən bu dəccali sistemə əsaslanan ideologiyadır. Uca Rəbbimiz Allah bir ayəsində dəccalın batil sisteminə tabe olanları belə tərif edir:

**Şübhəsiz ki, günahkarlar azğınlıq və əzab-əziyyət içindədirlər. (Qəmər surəsi, 47)**

Darvinizm dünyanı aldatmağa, insanları Allah'a imandan uzaqlaşdırmağa əsaslanan ideologiya olduğu üçün dəccalın tərəfdarları üçün nə olarsa olsun, bu batil dinin dirçəldilməsi vacibdir. Elə bu səbəbdən dəccalın himayəsinə girən bəzi şəxslər bu ideologiyanı yaşatmaq üçün indiyə qədər hər üsuldan istifadə edirlər. Heç bir elmi dəlilin olmamasına baxmayaraq, təkamül nəzəriyyəsini bütün dünyaya sübut dilmiş nəzəriyyə kimi təqdim edirlər. Olmayan dəlilləri varmış kimi göstərir, fosilləri öz nəzəriyyələrinə uyğunlaşdırmaq üçün saxtakarlıq etməkdən də çəkinmirlər. Bircə ara-keçid forma belə olmamasına baxmayaraq, xəyali ara-keçid formalar düzəltmiş, saxtakarlıq etmiş, bunları məktəb dərsliklərində elmi dəlil kimi tədris



etmişlər. Təkamül əleyhinə ortaya çıxan saysız-hesabsız dəlili gözardı etmiş, qəsdən gizlətmiş, görməməzliyə vurmuş, insanlardan uzaq tutmuşlar.

Saxtakarlıqlarının üstü açıldıqda utanmaq yerinə aldadıcı üsullarına davam etmiş, yeni saxtakarlıqlara əl atmaqdan və bunları müdafiə etməkdən çəkinməmişlər. Təkcə bir zülalın belə təsadüfən əmələ gələ bilməyəcəyi elmi cəhətdən sübut edilməsinə baxmayaraq, həyatın əvvəlcə palçıqlı suda başlaması iddiasına israrla davam etmişlər (bir funksional zülalın təsadüfən əmələ gəlmə ehtimalı $10^{950}$-dir, yəni sıfırdır). Saxta dəlilləri qəzetlərdə, elmi jurnallarda, televiziyada yayımlamaqdan çəkinməmiş, bunu dərs kimi illərlə təhsil müəssisələrində öyrətmişlər. Darvinizm saxtakarlıq, uydurma və yalan üzərində qurulmuş inanc sistemidir. Darvinizm elm deyil.

Darvinin təkamül nəzəriyyəsi irəli sürüldüyü ilk gündən insanları bütpərəst etməyə, Allah'a imandan uzaqlaşdırmaq istəmişdir. 150 il boyu insanları aldatmış, insanları yalana inandırmağa çalışmışdır. Darvinizm saxtakarlığa ehtiyacı olan, tərəfdar əldə etmək üçün yalan söyləyən, darvinizmin yalan olduğu həqiqətini söyləyənləri susdurmağa çalışan batil bir dindir.

Allah bir ayəsində belə buyurur:

**De: "Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi? Allahın lənətlədiyi, qəzəbləndiyi, özlərini meymunlara, donuzlara və şeytanlara ibadət edənlərə döndərdiyi şəxslər mövqecə daha pis və doğru yoldan daha çox azanlardır! (Maidə surəsi, 60)**

Normal olaraq insanların bu cür yanlış ideologiyanın arxasınca getmələrinin, şübhəsiz ki, məntiqi yoxdur. Lakin insanların bir qismi dəccalın qurduğu tələyə düşmüş, şüursuzca bu yalana inanmışlar. Çünki dəccal hiyləgər üsuldan istifadə etmişdir. Lakin, şübhəsiz ki, hər batil dində olduğu kimi bu dində də Allah'a qarşı qurulan bütün hiyləgər tələlər boşa çıxmışdır. Allah ayələrində bu həqiqəti belə bildirir:

**Həqiqətən, (kafirlər) hiylə qururlar. Mən də hiylə qururam. Kafirlərə hələ möhlət ver! Onlara bir az da möhlət ver. (Tariq surəsi, 15-17)**



# "FORMA HAFİZƏ"SİNƏ MALİK METALLARIN HƏYATIMIZDAKI YERİ



Uca Allah dünyada insanlara bir çox nemət bəxş etmişdir. "Forma hafizə"sinə malik metallar da bunlardan biridir. Metallardakı bu xüsusiyyət gündəlik həyatı asanlaşdıran bir çox texnoloji məhsulun təkmilləşdirilməsinə imkan verir. Bunlardan bəziləri aşağıdakılardır:

-Açıq ürək əməliyyatları və sinir sistemi cərrahiyyəsində istifadə edilən avadanlıqlar

-Qan damarlarına yerləşdirilərək qan laxtalarını tutan cihazlar

-Çox böyük deformasiyalara belə müqavimət göstərən və əvvəlki vəziyyətinə qayıdaraq zərər çəkməyən super elastik eynək çərçivələri

-Dişlərin estetik görünüşündəki deformasiyaları düzəldən qövsvari simlər

-Yanğın zamanı yanıcı və zəhərli qazların çıxmasının qarşısını alan təhlükəsizlik qapaqları

Forma hafizəsinə malik metalların istifadə sahələrindən biri qan damarlarıdır. Qan damarlarına yerləşdirilən filtrlər laxtaları tutaraq insanı ölümcül təhlükələrdən xilas edir. Bu proses üçün nikel-titan qarışığından ibarət simdən emal edilmiş lövbər formasındakı filtr damarın içinə yerləşdirilmədən əvvəl düzləşdirilir. Damarın içinə yerləşdirildikdən sonra sim bədən temperaturu nəticəsində hərəkətlənərək filtr funksiyasına uyğun formasına qayıdır və venoz damarların içindən keçən laxtaları tutur. Şübhəsiz ki, filtrin xam maddəsinin yüksək temperatur vasitəsilə forma hafizəsindən faydalanması Rəbbimizin insanlara bəxş etdiyi nemətlərdən biridir.

Binalar, müxtəlif modellərdə avtomobillər, təyyarələr, körpülər, qatar reysləri, göydələnlər və digər bir çox texnoloji məhsulda istifadə edilən forma hafizəli metallar yoxdan yaradan və bənzərsiz yaratma gücünə malik Rəbbimizin ucalığını və qüdrətini göstərən nümunələrdən bəziləridir. Baxdığımız hər yerdə, hər şeydə uca Allah'ın qüsursuz yaratma sənətinin dəlillərinə rast gəlirik. Canlı və cansız hər maddə bizə Onun böyüklüyünü və üzərimizdəki nemətini xatırladır. Allah'ı ucaldaraq təsbih etməyimizə və Ona şükür etməyimizə səbəb olur.



**Heç yaradan yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?! Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir. (Nəhl surəsi, 17-18)**

# Hz. Mehdinin (ə.s) çıxış zamanı

Ənəs bin Malikdən rəvayət edilir. O dedi ki, Rəsulullah (s.ə.v) buyurdu: dünyanın ömrü axirət günlərindən yeddi gündür. Allah-Təala buyurdu ki, Rəbbin qatında bir gün sizin saydıqlarınızdan min il kimidir.

Ənəs bin Malikdən rəvayət edildi ki, Rəsulullah (s.ə.v) buyurdu: kim bir din qardaşının Allah yolunda bir ehtiyacını ödəsə, Allah-Təala onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmişcəsinə bu dünyanın yeddi min illik ömrünə bərabər savab yazar. (Kitab-ül Buran Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 88)

Rəsulullah (s.ə.v) keçmiş, gələcək və axirət həyatı ilə bağlı məsələlər haqqında xəbər verərkən təşbehlərdən istifadə etmişdir. Burada dünyanın əsl yaşının 7 min il olduğu nəzərdə tutulmur (Allahualəm). 7 min illə əlaqədar rəvayətlər bir təqvim başlanğıcı kimi tarixdə əhəmiyyətli bir hadisəyə, məsələn, tufandan sonra insanların məskunlaşmasına və dünya həyatının aşkar bir vəchlə yenidən başlamasına aid ola bilər. Yəni o tarixdən etibarən tarix sanki yenidən başlamışdır, insanların sayı artmış, şəhərlər çoxalmışdır. Bəzi üləmalar həzrəti Nuh əleyhissalamdan sonrakı dövrü dünya tarixinin yenidən başlaması kimi qiymətləndirirlər. Xristianların miladi 1987-ci ildən əvvəl əhəmiyyətli bir hadisə olduğunu qəbul etdikləri kimi. Onlar bir tarix başlanğıcı meydana gətirib ondan əvvəl, ondan sonra deyərək bir zaman müəyyən etdikləri kimi, rəvayətdə də, müəyyən bir vaxtı təsbit etmək üçün təqvim başlanğıcı kimi 7 min il əvvəl və sonrakı bir zamana işarə edə bilər. İmam Rəbbani "Məktubat"da bu rəvayəti nəql etmişdir.

Təqribən 124 min peyğəmbərimiz gəlib keçib. (Mektubati Rabbani, 1/354)



Hz. Adəmdən etibarən Rəsulullahımıza qədər 124 min peyğəmbər gəlib keçmişdir. Başqa bir rəvayətdə İmam Rəbbani həzrətləri belə buyurmuşdur:

Belə aradan "1000 ilin" keçdiyi vaxt keçən ümmətlərdə Ulul-əzm bir peyğəmbərin gəldiyi vaxtdır. (Məktubati Rabbani, 1/495)

Hər 100 ildə bir peyğəmbər, 1000 ildə də ülul-əzm bir peyğəmbər gəlmişdir. Hər 100 ildə bir peyğəmbər gəldiyini qəbul etsək, hz. Adəm əleyhissalamdan hz. Rəsulullaha qədər:

124.000x 100= 12.400.000 (on iki milyon dörd yüz min il olmalıdır). Deməli, Peyğəmbərimiz (s.ə.v): "Dünyanın ömrü 7 min ildir" ,- deyərkən dünyanın əsl yaşını deyil, əhəmiyyətli bir hadisənin baslanğıcını nəzərdə tutmuşdur (Allahualəm).

Əhməd ibn Hənbəl nəql etdi. Dünyadan beş min altı yüz il keçmişdir. (Kitabül-Burhan Fi Alamet-il Ahir zaman, 89 )

Əvvəlki hədislərdə dünyanın ömrünün 7 min il olduğunu görmüşdük. Burada isə Peyğəmbərimizə qədər 5600 il keçdiyi ifadə edilir. Bu rəvayətə görə, Muhəmməd ümmətinin ömrü hicri 1400-cü ilə qədərdir (7000-5600=1400. Allahualəm).

Abdullahdan (ə.s) rəvayət edilmişdir: Rəsulullah (s.ə.v) buyurdu ki: Əhli-beytimdən adı adıma bənzər olan bir adam başa keçəcək... Dünyanın ancaq bir günlük ömrü qalsa belə, onun başa keçməsi üçün Allah o günü uzadar. (Sünen-i Tirmizi 4/92)

Hz. Əlidən rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: Qiyamətin qopması üçün zamanda yalnız bir gündən başqa vaxt qalmasa, Allah (c.c) mənim əhli-beytimdən bir şəxsi göndərəcək. (Sünen-i Ebu Davud, 5/92)

İbn Macə və Əbu Naim Əbu Hüreyrədən rəvayət etdilər. O dedi ki, Peyğəmbər (s.ə.v) buyurdu: Əgər dünyada bir gün qalsa, Allah o günü uzadar və əhli-beytimdən birini məlik edər. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Muntazar, 10 El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 27 Ölüm-Kıyamet -Ahiret ve Ahir Zaman Alametleri, səh.437)

Yuxarıdakı rəvayətlərdən anladığımız kimi, hicri 1400-cü il, eyni zamanda, hz. Mehdinin çıxış ilidir. Hicri 1400-cü ilə girməyə dünya günü olaraq 1 gün belə qalsa, Mehdinin vəzifəsini yerinə yetirməsi üçün qiyamət müəyyən bir zaman təxirə salınacaq (Allahualəm). İbn Abbasdan səhih nəql edilən belə bir rəvayət vardır. O dedi ki: Dünya yeddi gündür, hər bir gün min il kimidir və Rəsulullahda (s.ə.v) onun sonunda göndərildi.

Dəkkak bin Zeydi Cühənidən rəvayət etdilər: Mən gördüyüm bir yuxunu Rəsulullaha (s.ə.v) izah etdim. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli bir minbərin ən üst pilləsində idi: O buyurdu ki, gördüyün yeddi pilləli minbər bu dünyanın ömrü olan yeddi min ildir. Mən də onun son minində olacağam. (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 89)

Bu rəvayətlərdən də anladığımız kimi, ümmətin ömrü hicri 1400-cü ilə qədərdir. Hicri 1400-cü ildə (min illik) bir gün bitmiş olur. Halbuki, ümmət o bitmə günündə hələ də vəd edilən hz. Mehdini (ə.s) gözləyirdi. O zaman o (min illik) bir gün uzadılaraq, hz. Mehdinin (ə.s) vəzifəsini yerinə yetirməsi üçün uyğun hala gətiriləcək.

İmam Rəbbani Mehdinin Peyğəmbərimizin (s.ə.v) vəfatından 1000 (min) il keçdikdən sonra ikinci min ildə gələcəyini bildirir.

Ancaq gözlənilən odur ki, aradan min il keçdikdən sonra bu gizli dövlət təcid edilə (yenilənə). Ona bir üstünlük verilib suyu tapması, artırıla... Beləcə, kəmalatın əsli zühur edib onun zillətini örtə... Və uca bağlılığa dəyər verən Mehdi gəlsin. Allah ondan razı olsun. (Mektubati Rabbani, 1/569)

Şəriətin təsdiq xüsusiyyətləri, millətin yenilənməsi ikinci mindədir. Bu iddianın doğruluğuna ədalətli şahid İsanın (ə.s), Mehdinin (ə.s) bu mində var olmalarıdır. (Mektubati Rəbbani 1/611) Rəsulullahın (s.ə.v) ümməti arasından çıxanlar çox kamildirlər. Yəni Rəsulullahın (s.ə.v) irtihali (vəfatı) üzərindən min il keçdikdən sonra istəsə, az olsunlar. Onların çox kamallı olmaları bunun üçündür: şəriətin möhkəmlənməsi çox mükəmməl şəkli ilə hasil olar. Aradan min il keçdikdən sonra Mehdinin gəlişi də bunun üçündür. Onun mübarək gəlişini hatəmür-rüsul Rəsulullah (s.ə.v) müjdələmişdir. İsa (ə.s) da aradan min il keçdikdən sonra nüzul edəcək. (Mektubati Rabbani 1/440)

Peyğəmbərimizin (s.ə.v) vəfatından min il keçdikdən sonra ikinci min il başlayır. İmam Rəbbaninin yuxarıdakı izahlarına görə, ikinci min ildə hz. Mehdi (ə.s) gələcək. Bunun üçün ən uyğun zaman 1400-1600-cü illərdir. Bu illər ikinci minilliyin tam ortasıdır. 1400-cü ildən 1500-cü ilə qədər İslam əxlaqının hakimiyyəti, 1500-1600-cü illər arasında da pozulma və qiyamət gözlənilir.

Bu ümmətin ömrü min (1000) ili keçəcək, lakin min beş yüz (1500) ili aşmayacaq. (Kıyamet Alametleri, 299)

Cəlaləddin Suyuti "El-Keşfu Fi Mücazeveti Hazin el-Ümmeti El Elfe Ellezi Dellet Aleyh el-Asar" adlı kitabında və Bədiüzzaman Səid Nursi ümmətin qalibanə ömrünün 1506-cı ilə qədər olacağını bildirirlər.

"... Birinci cümlə, min beş yüz (1500) ilə axırzamanda bir taifeyi-mücahidin (din üçün çalışanların, cihad edənlərin) son zamanlarına; və ikinci cümlə, min beş yüz altı (1506) ilə qalibanə mücahidənin tarixinə.... işarə edir. (...) bu tarixə qədər (1506) zahir və aşkaranə, bəlkə qalibanə davam edəcəyinə rəmzə yaxın (işarə yolu ilə) eyham edir". (Sikke-i Tasdik-i Gaybi, 46)

İmam Suyuti daxil olmaqla, bir qisim üləma bu ümmətin ömrünün (hicri) 1500-cü illərə qədər davam edəcəyini, sonra da pozulmanın başlayacağını (Allahualəm) deyirlər. Səhih qaynaqlı hədislərə görə, hz. Mehdi (ə.s) zühur etdikdən sonra 40 il yaşayacaq. Hz. İsa (ə.s) haqqındakı hədislərdə də onun yer üzündə qalma müddətinin 40-45 il olacağı bildirilir. Bunun bir qismini hz. Mehdi (ə.s) ilə hz. İsa (ə.s) birlikdə yaşayacaqlar, bu da təxminən 7-10 ildir. Bu məlumatlara görə, hz. Mehdi (ə.s) və hz. İsanın (ə.s) vəfatına qədər olan illər 1475-1480-ci illər olacaq. Bu tarixdən 1500-cü ilə qədər davam edən 20-25 illik bir müddət də vəziyyətin mühafizəsinə çalışılan bir dövr olacaq. Bu rəvayətdə də Mehdinin əsrin əvvəlində zühur edəcəyi bildirilir.

Çünki onun (hz. Mehdinin (ə.s.)) zühuru əsrin əvvəlində olacaq. (Mektubatı Rəbbani )

Yuxarıda izah edildiyi kimi, İmam Suyutinin rəvayətinə görə, Muhəmməd ümmətinin ömrü 1500 (min beş yüz) ili aşmayacaq. Hicri 1500-cü ilə çatmağa bir əsrin başı qalmışdır. O da hicri 1400-cü ildir.

Aparılan hesablamalar onu göstərir ki, Mehdi ancaq hicri 14-cü əsrin əvvəllərində çıxacaq. Ümmətin ömrü hicri 1500 ilini aşmayacağına görə, Mehdi hicri 1400-cü ilin əvvəllərində gəlməlidir. (El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 494 Ramuz: El -Ahadis 508 (Ibni Mace-Tabaranai 'nin Kebiri)



## Planetlərlə Günəş arasındakı məsafə sabitdir:

**Günəş sistemində 8 planet və bu planetlərə bağlı 54 peyk var. Bu planetlər Günəşə yaxınlığına görə Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Neptun və Urandır. Planetlərlə Günəş arasındakı məsafə sabitdir və əsla dəyişmir. Bu planetlərin və 54 peykin içində həyat üçün uyğun səthə və atmosferə malik yeganə göy cismi isə Yerdir.**

# GÜNƏŞ SİSTEMİNDƏKİ MÖCÜZƏVİ TARAZLIQLAR

### Günəşin cazibə qüvvəsi və planetlərin mərkəzdənqaçma qüvvəsi arasında müvazinət var

Planetləri kosmik fəzaya sovrulmaqdan qoruyan təsir Günəşin cazibə qüvvəsi ilə planetin mərkəzdənqaçma qüvvəsi arasındakı müvazinətdir. Günəşin böyük cazibə qüvvəsi bütün planetləri cəzb edir, onlar da fırlanmaları nəticəsində mərkəzdənqaçma qüvvəsi sayəsində bu cazibədən xilas olurlar.

Əgər planetlərin fırlanma sürəti bir az yavaş olsaydı, onda planetlər sürətlə Günəşə cəzb olunar və Günəş tərəfindən partlayışla udulardılar.

Bunun əksi də mümkün ola bilərdi. Əgər planetlər daha sürətlə fırlansaydılar, bu dəfə də Günəşin cazibə qüvvəsi onları saxlaya bilməz və planetlər kosmik fəzaya sovrulardılar. Halbuki, çox həssas müvazinət qurulmuşdur və sistem bu müvazinəti qoruduğu üçün davam edir.

Kainatdakı həssas tarazlıq və nizamı ən açıq müşahidə etdiyimiz sahələrdən biri də Yer kürəsinin yerləşdiyi Günəş sistemidir. Günəş sistemindəki böyüklü-kiçikli planetlərin bənzərsiz nizamı sistemin 4 milyard ildən artıq müddət ərzində sabit quruluşunu qorumuşdur. Məhz burada Allah'ın sonsuz gücü və kainatdakı hər bir zərrə (atom) üzərindəki hakimiyyəti ilə qarşılaşırıq. Allah'ın yaratdıqları üzərindəki bu gücü və hakimiyyəti bir ayədə belə xəbər verilir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız (onları etdiyiniz) zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın! (Yunus surəsi, 61)**



**Hər planet üçün ayrı-ayrı qurulmuş xüsusi müvazinət var**

Planetlərlə Günəş arasındakı məsafələr də fərqlidir. Habelə, kütlələri də fərqlidir. Buna görə, hər biri üçün özünəməxsus fırlanma sürəti müəyyən edilməlidir ki, Günəşə yapışmasınlar və ya Günəşdən uzaqlaşıb kosmosa sovrulmasınlar. Əlbəttə, bütün bu müvazinətlər Günəş sistemindəki planetlərdən biri olan Yerə də aiddir.

**Sistemdəki digər planetlər Yerin təhlükəsizliyi və orbiti üçün mühüm əhəmiyyət kəsb edir:**

Yupiterin mövqeyi buna misaldır. Günəş sisteminin ən böyük planeti olan Yupiter, əslində, Yerin müvazinətini təmin edir. Astrofizik hesablamalar Yupiterin orbitinin Günəş sistemindəki Yer kimi digər planetlərin orbitlərinin sabitliyini qoruduğunu üzə çıxarmışdır.

Digər bir çox ulduz sistemində də Yupiterə bənzər planetlər var. Ancaq onlar aid olduqları sistemin sabitliyini və ya sistemlərindəki digər planetləri qorumurlar. Vaşinqton Universitetindən prof. Piter D. Uord deyir: "Bu gün müşahidə olunan bütün yupiterlər pisdir. Yeganə yaxşı Yupiter bizimkidir və belə olmalıdır, əks təqdirdə, ya qaranlıq kosmosa, ya da Günəşinizə doğru sovrulardınız". (Peter D. Ward and Donald Brownlee, "Rare Earth: Why Complex Life is Uncommon in the Universe")

Yupiter baxımından digər mühüm cəhət də budur: Yupiter olmasaydı, çoxlu sayda quyruqlu ulduz toqquşmalarına görə



yer üzündə həyat olmazdı. Lakin Yupiter nəhəng kütləsinin əmələ gətirdiyi maqnetik sahə sayəsində Günəş sisteminə daxil olan meteorit və kometaların orbitlərini çaşdıraraq Yerə istiqamət götürmələrinin qarşısını alır. Beləliklə, Yer üçün qalxan funksiyası yerinə yetirən nəhəng maqnetik qoruyucu çətir əmələ gətirir.
Yupiterin Yeri qoruyan ikinci funksiyasını planetoloq Corc Vetherill "Yupiter nə qədər əhəmiyyətlidir" adlı məqalədə belə açıqlayır: "Yupiterin yerində əgər bu böyüklükdə bir planet olmasaydı, Yer planetlərarası boşluqda hərəkət edən meteoritlər və kometaların min dəfə artıq hədəfinə çevrilərdi… Əgər Yupiter indiki yerində olmasaydı, hal-hazırda biz də Günəş sisteminin mənşəyini tədqiq etmək üçün mövcud olmazdıq". (G.W. Wetherill, "How Special is Jupiter?", Nature, vol. 373, 1995, səh. 470)

**Yer-Ay ikili planet sistemi Günəş sisteminin tarazlığının qorunmasında mühüm amildir**

Yer-Ay sistemi olmadıqda Yupiterin nəhəng kütləsi Merkuri, Venera kimi daxili planetlərdə böyük qeyri-sabitliyə səbəb olardı. Bu da müəyyən müddət sonra Merkuri və Venera planetlərinin orbitlərini bir-birinə həddindən artıq yaxınlaşdırar, belə bir yaxınlaşma isə Merkurinin sistemdən kənara atılması, Veneranın da orbitinin dəyişməsi ilə nəticələnərdi. Günəş sisteminin kompyuter simulyasiyasını quran elm adamları sistemdə



milyardlarla il davam edən müvazinət və sabitliyin ancaq bu planetlərin ideal kütlə və mövqeləri sayəsində mümkün olduğunu, bu müvazinətdə ən kiçik dəyişikliyin belə Günəş sisteminin, eləcə də bəşəriyyətin məhv olmasına səbəb olacağını bildiriblər.

1998-ci ilin noyabr ayında məşhur astronomiya jurnalı "The Astronomical Journal"da dərc edilən son astronomik tədqiqatların biri haqqındakı yazıda Günəş sistemindəki bu qeyri-adi müvazinət "əsas kəşflərimiz Günəş sistemindəki uzunmüddətli sabitlik və müvazinətin təmin edilməsi üçün bir növ "ilk dizayna" ehtiyac olduğunu göstərir" (Innanen, Kimmo, S. Mikkola, and P.Wiegert. 1998. The Earth-Moon System and the Dynamical Stability of the Inner Solar System. The Astronomical Journal 116: səh. 2055-2057) ifadəsilə vurğulanır. Şübhəsiz ki, məqalədəki "ilk dizayn" ifadəsilə Rəbbimizin qüsursuz yaratması ifadə edilir. Günəş sisteminin quruluşu da insan həyatı üçün qeyri-adi dərəcədə xüsusi yaradılışla nizamlanmışdır. Allah'ın bu üstün yaratması Quranda bir çox ayə ilə xəbər verilmiş və insanlara bu möcüzəvi yaradılış üzərində düşünmək əmr edilmişdir:

**Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra ərşi yaradıb hökmü altına alan, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyən, günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən Allah`dır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır! (Əraf surəsi, 54)**

Günəş və Yer məhz lazım olduğu kimi yaradılmışdır. Allah'ın hər şeyi bir hesabla yaratması Quranda belə xəbər verilmişdir:

**Səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, günəşi və ayı bir ölçü ilə yaradan Odur. Bu, yenilməz qüvvət sahibi, (hər şeyi) bilən Allah`ın təqdiridir. (Ənam surəsi, 96)**



# Cəmiyyətdəki narahatlığın qaynağı: DEDİ-QODU

Bəzi insanların dedi-qodunu vərdişə çevirmələrinin səbəbi nədir?

Dedi-qodunun cəmiyyətə verdiyi zərərlər hansılardır?

Seytanın cəmiyyətdə narahatlığı və sevgisizliyi yaymaq üçün istifadə etdiyi üsullara qarşı insanlar Quranda necə xəbərdar edilirlər?

Cəmiyyətdə dedi-qodu xəstəliyinin qarşısını necə almaq olar?

Dedi-qodu sevgi, şəfqət və mərhəməti azaldan pis əxlaq xüsusiyyətidir. Uca Allah Quranda möminlərin bu davranışdan çəkinmələrini əmr etmişdir. Mömin hərəkətlərində olduğu kimi, ağlından keçirdiklərində və hiss etdiklərində də Allah'ın hədlərini aşmaz. Quran hökmlərinin rəhbərliyi altında hiss və düşüncələrini tərbiyə edən mömin Allah'ın izni̇lə mömin bacı-qardaşlarına daim gözəl əxlaq göstərər.

Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə geniş yayılan davranışlardan biri də dedi-qodudur. Belə cəmiyyətlərdəki insanlar vaxtları və imkanları olmasa da, dedi-qodu etmək üçün mütləq fürsət taparlar. Bəzən qapı qarşısında qonşularla, bəzən də saatlarla telefon söhbətlərində bu mənzərəni görmək mümkündür. Ancaq əhəmiyyətli olan odur ki, bu şəxslər dedi-qodudan dərin zövq alırlar.Çünki dedi-qodusu edilən insan hörmətdən salınıb alçaldılarkən dedi-qodunu edənlər özlərini üstün göstərməyə çalışırlar. Bu səbəbdən, yığıncaqlarda danışa biləcəkləri bir çox faydalı və ya gözəl mövzu olduğu halda, onlar israrla bəzilərinin dedi-qodusunu edirlər. Qonşuları, dostları, qohumları, yoldaşları, tele-ulduzlar və hətta yoldan keçən insan belə bu dedi-qoduların qaynağı olur. Uca Rəbbimiz bir-birlərinin dedi-qodusunu edən, tənə edən insanları bir ayəsində bu şəkildə xəbərdar edir:

**Hər bir qeybət edənin, tənə vuranın vay halına! (Huməzə surəsi, 1)**



**Dedi-qodu insanın yaxşı niyyətdən uzaq olduğunun göstəricisidir**

İnsanın eşitdiyində xoşlanmadığı söhbəti arxasıncadanışmağın doğru olmadığını hər insan bilir.Dedi-qodu edən insan da daxil olmaqla, heç kim bunun əksini iddia edə bilməz. Çünki, həqiqətən, tənqidi mövzu varsa və bu mövzu o insana kömək etmək məqsədilə danışılırsa, ən doğru hərəkət bu vəziyyəti həmin şəxsə bildirməkdir.Yoxsa hər kəslə vəziyyətinmüzakirə edilməsində və qınanan insanın vəziyyətdən xəbərdar edilməməsində yaxşı niyyət yoxdur. Üstəlik, dedi-qodu edən insanlarhəmin davranışın onlara qarşı da edilmə ehtimalının olduğunu bilər və bundan heç xoşlanmazlar. Özləri haqqında mənfi danışılmasına çox həssaslıq göstərərkən, başqalarına qarşı etdikləri bu çirkin rəftardan vaz keçməzlər. Ancaq uca Allah Quranda insanları qeybət etməkdən çəkindirmiş və bunun Quran əxlaqına uyğun olmadığını bu şəkildə bildirmişdir:

**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın.Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allah'dan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir. (Hucurat surəsi, 12)**

Allah'ın Quranda bildirdiyi əmrə müvafiq olaraq Allah qorxusu olan möminlər əsla bir-birlərinin arxasınca danışıb qeybət etməzlər. Sevginin və dostluğun əhəmiyyətli əlamətlərindən birinin qarşılarındakı insana dünyada və axirətdə fayda verəcək şəkildə hərəkət etmək olduğunu bilərlər. Bu vəziyyətdə də əgər yanlış rəftar görərlərsə, onun səhvini anlaması və bu səhvdən imtina etməsi üçün bunu həmin insana söyləyərlər.

**Dedi-qodu edənlər şeytanın yoluna uyanlardır**

Quran əxlaqından uzaq yaşayan insanlar arasında normal qarşılanan dedi-qodu görməzlikdən gəlinən bir davranış deyil. Çünki dedi-qodu etməyi vərdiş halına gətirən insanın vicdanı fərqində olmadan elə korlaşır ki, insan artıq bunun günah olduğunu belə hiss etməməyə başlayır və çəkinmədən, hər fürsətdə dedi-qodu edir. Şübhəsiz, bu, şeytanın iman gətirməyən insanları sürüklədiyi böyük bəladır. Uca Rəbbimiz şeytanın bu oyununa qarşı qullarını bir ayədə belə xəbərdar etmişdir:

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

**Dedi-qodu cəmiyyətdəki başqa pisliklərin də qaynağıdır**

Dedi-qodunun gətirdiyi nəticələrdən biri də, insanlar arasında dedi-qodu ilə düşmənçilik toxumunun səpilməsidir. Dedi-qodu kini, hirsi və nifrəti alovlandırır. Çox kiçik mövzular dedi-qodu səbəbindən qarşısı alınmaz problemlərin, mübahisə və mübarizələrin ortaya çıxmasına gətirib çıxara bilər. Hətta qəzetlərdə də dedi-qoduya görə ailələrin dağılmasına və cinayətlərə dair xəbərlərə rast gəlirik.



Dedi-qodu etmək çox pis əxlaq xüsusiyyəti olduğu kimi, eyni zamanda da insanların vaxtlarının boş və məqsədsiz keçməsinə səbəb olur. Halbuki, sonsuz hökm və hikmət sahibi olan Allah Quranda dedi-qodunu qadağan etdiyi kimi, boş vaxt keçirməyi də qadağan etmişdir. Uca Allah'a səmimi olaraq inanan insan dedi-qodu etməz və dedi-qodu edəni dinləməz, boş və ya faydasız olan bir söz eşitdiyində isə o mühitdən ən gözəl tərzdə uzaqlaşar. Rəbbimiz bir Quran ayəsində belə buyurur:

**Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə (oradan) ləyaqətlə ötüb keçərlər.(Furqan surəsi, 72)**

Allah başqa bir ayədə isə iman gətirənlərin boş şeylərdən tamamilə üz çevirdiklərini belə bildirir:

**O kəslər ki, lağlağıdan (lüzumsuz şeylərdən, boş şeylərdən) üz döndərərlər. (Muminun surəsi, 3)**

Dedi-qodu etmək Allah'ın haram etdiyi bir hərəkət olduğu kimi, bu pisliyi edənlər Allah'ın haram etdiyi insanların arasını vurmaq, kin və hirsə səbəb olmaq və boş vaxt keçirmək kimi başqa günahları da etmiş olurlar.

Buna görə də, dedi-qodudan çəkinmək, dedi-qodu edilən mühitlərdən uzaqlaşmaq, dedi-qoduya şahid olanda da bu səhvi uyğun şəkildə xatırlatmaqkübar və Quran əxlaqına uyğun davranış olar.

Unutmaq olmaz ki, bir cəmiyyətdə dedi-qodu xəstəliyinin qarşısının alınmasının yeganə yolu din əxlaqının insanlar arasında yayılmasının təmin edilməsidir. Din əxlaqının varlığıilk öncə Allah sevgisini özü ilə gətirəcəyi üçün bu, bütün insanlara müsbət və gözəl təsir edər. Hər kəs Allah'ın razılığını qazanmaq üçün gözəl əxlaq göstərər, bir-birini Allah rizası üçün sevər, hörmət edər.Cəmiyyətə şəfqət, mərhəmət, xoş münasibət hakim olar.İnsanlar Allah'ın əmri yönündə xeyirlərdə yarışar, imkan və vaxtlarını dedi-qodu etmək kimi boş işlərə deyil, xeyirli fəaliyyətə yönəldərlər.



# Boş və faydasız şeylərdən necə üz çevirmək olar? Nələr boş və faydasızdır?

Boş və faydasız şeylərdən üz çevirmək insanın yalnız Allah'ın razılığını qazanacağı davranışları etməsi ilə mümkündür. Mömin dünyada ona verilən vaxtı çox yaxşı qiymətləndirməli olduğunu bilir. Çünki bu dünyada etdiyi işlər nəticəsində axirətdə sonsuza qədər yerləşəcəyi yer müəyyən olunacaq. Buna görə, hər etdiyi işlə axirətdə xeyir qazanmağa çalışır. Əlbəttə, hər insan kimi o da danışır, əylənir, yemək yeyir, gülür, düşünür, işləyir, amma bunları edərkən həmişə insanlara, dinə xeyir verən düşüncələri olur.

Mömininin hər hərəkətinin bir məqsədi var. DaimAllah'ın razılığını ən çox qazandıran işlərə yönəlir. Bu mövzuya belə nümunə verə bilərik: avtomobil mühərriklərinin gücü haqqında söhbət etməyi hər insan bacarır. Ancaq mömin təcili işlər varkən, saatlarla bu mövzu üzərində danışmaz. Eyni şəkildə, mömin yanında Allah'ın dinini izah edəcəyi bir insan varkən, onunla uzun müddət bir idman qarşılaşmasında hansı tərəfin qazanacağından bəhs etməz. Çünki o anda həmin insanaAllah'ın varlığını, böyüklüyünü, cənnətə layiq olmaq və cəhənnəmdən çəkinmək üçün nə edəcəyini öyrətməlidir.

Qısası, mömin dinin və müsəlmanların mənfəətini maraqlandırmayan mövzular üzərində nə uzun-uzadı söhbətlərə dalar, nə də bu mövzulara çox vaxt ayırar. Zamanını çox yaxşı qiymətləndirər. Qarşılaşdığı hadisələrdə nəyin boş iş, nəyin faydalı olduğunu isə vicdanı və ağlı ilə ayırd edər. Quranda möminlərin boş sözlə qarşılaşdıqda göstərəcəkləri rəftar belə xəbər verilir:

**Onlar boş bir söz eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahilləri istəmirik!" – deyirlər. (Qəsəs surəsi, 55)**

Quranda möminlərin hər işlərində ən gözəlini axtarmaları və gözəl sözlü olmaları belə əmr edilir:

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar.Çünki şeytan onların arasına ədavət sala bilər.Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

Allah'ın bu əmrini bilən insan sözün ən gözəlini vicdanına tabe olarq tapar. Söhbətlərində: "Nə olursa olsun", - deyib ilk ağlına gələni söyləməz.Əksinə, ən gözəl, ən təsirli söhbətlər edər, qarşısındakıları incitməməyə, onların sevinclərini pozmamağa çalışar.Allah'ınrazı olacağı danışıq üslubunu seçər və vicdanından açar kimi istifadə edər.





# Texnologiya təbiəti təqlid edir

Çoxlu hissələrdən ibarət təyyarə maketi aldığınızı düşünün. Yüzlərlə kiçik hissədən təşkil olunmuş bu maketi hansı sıra ilə düzəldərdiniz? Şübhəsiz ki, bunun üçün əvvəlcə qutunun üzərindəki rəsmlərə baxar və içindəki təlimat kitabçasından faydalanardınız. Çünki maketi düzəldərkən təlimatı oxumaq görüləcək işə sərf olunan vaxtı qısaldır, o maketin səhvsiz, mükəmməl düzəldilməsinə kömək edir.

Təyyarənin düzəldilməsi haqqında təlimatlar olmasa, əgər əlinizdə buna bənzər model varsa, maketi ona baxıb düzəldə bilərsiniz. Çünki daha əvvəl gördüyünüz təyyarə modelinin dizaynı onun bənzərinin düzəldilməsində sizə əsas yolgöstəricidir. Eyni məntiqlə, təbiətdə mövcud olan qüsursuz dizayndan nümunə götürmək də bənzər funksiyalara malik texnoloji cihazın dizaynı və düzəldilməsinin ən qısa yolla, mükəmməl şəkildə həyata keçirilməsini təmin edir.

Bunu dərk edən bir çox elm adamı və tədqiqat-təkmilləşdirmə (ARGE) mütəxəssisi də hər yeni fəaliyyətdən əvvəl bunun canlılardakı nümunələri araşdırır, onlardakı sistem və dizaynlardan nümunə götürərək təqlid edirlər. Başqa sözlə, elm adamları Allahın təbiətdə yaratdığı canlıları təhlil edir və bunlardan faydalanaraq yeni texnoloji məhsullar istehsal edirlər.

Bu cərəyan yeni elm sahəsini meydana gətirmişdir: biomimetika. "Təbiətdəki canlıları təqlid etmə" mənasını verən və xüsusilə son dövrlərdə texnologiya aləmində tez-tez bəhs edilən bu elm sahəsi insanlara yeni üfüqlər açmışdır.

Canlılardakı sistemlərin quruluşunu təqlid etmə kimi tanınan biomimetikanın meydana gəlməsi bu gün təkamül nəzəriyyəsini müdafiə edən elm adamları üçün böyük məğlubiyyət olmuşdur. Çünki təkamül ağacının ən təkmil canlısı kimi qəbul etdikləri insanın özündən "daha ibtidai" hesab edilən canlıları təqlid etməyə çalışması, onlardan ilham alması təkamülçülər üçün qəbuledilməzdir.





İbtidai hesab edilən canlıların xüsusiyyətlərindən daha təkmil olanlar nümunə götürürsə, bu, gələcək texnologiyanın, əsasən, bu "ibtidai canlıların" dizaynı üzərində qurulması deməkdir. Bu isə ətraf mühitə uyğunlaşmayan ibtidai canlıların yox olub, qalanlarının inkişaf etdiyini müdafiə edən təkamül nəzəriyyəsinin məntiqinə tamamilə ziddir.

Təkamül nəzəriyyəsini müdafiə edənləri çıxılmaz vəziyyətə salan bu elm sahəsi günbəgün inkişaf edir və texnologiya aləminə hakim olur. Bu istiqamətdə "biomimikriya" adlanan və "canlıların davranışlarını təqlid etmə elmi" mənasını verən yeni elm sahəsi də meydana gəlmişdir.

Təkamül nəzəriyyəsini müdafiə edənlərin izah edə bilmədiyi təbiətdəki ağıllı mexanizmlərin hamısı aləmlərin Rəbbi olan Allahın yoxdan yaratdığını göstərir.

Gəlin, bu canlılardan bəzilərini birlikdə araşdıraq.

## OXÇU BALIĞININ OVLAMA ÜSULU

Oxçu balığı ən təəccüblü ovlama taktikasına malik canlılardan biridir. Balıq suyun səthinə yaxın yarpaqlara bir həşəratın qonmasını gözləyir. Həşəratı hədəfə aldıqdan sonra ona doğru su fışqırdaraq suya salır və çabalayan həşəratı dərhal tutur.

Bəzi oxçu balıqları yarpaqların üstündəki həşəratları havaya tullanaraq da tuturlar. Bu ovlama metodu çox həssas tənzimləmələrə əsaslanır.

Əvvəla, balıq suyun içindən havadakı canlının yerini düzgün müəyyənləşdirməlidir. Çünki işıq sıxlığı fərqli mühitlərdən keçərkən sınır, sınma bucağı dəyişir və yanılmalara səbəb olur. Buna misal olaraq suyun içinə uzatdığımız bir çubuğun suyun içindəki görüntüsünün sınmış kimi görünməsini göstərə bilərik.

Oxçu balığı isə bu sınma bucağını sanki hesablayır və hədəfini buna əsasən seçir. Fizikada sınma əmsalı adlanan bu amil balığın hədəfini vurmasına mane olmur. Bundan əlavə, balığın ağzındakı suyu püskürtmə sistemi də heyranedicidir. Balıq, eyni zamanda, həşəratın suyun üzərində haraya düşəcəyini də mükəmməl hesablayır. Ovlanan həşəratların çəkisi fərqləndiyinə görə, düşmə sürətləri də fərqli olur. Bu isə balığın verəcəyi qərarı daha da mürəkkəbləşdirir. Balıq isə ovladığı hər həşərat üçün ayrı hesablama aparır və ovunu müvəffəqiyyətlə tutur.

Bu üstün ovlama metodu balıq üçün yaradılmış xüsusi sistemdir. Uca Rəbbimizin bu balıq növü üçün yaratdığı möhtəşəm sənətdir.





sümük lövhələrlə örtülü olduğu məlum olub. Bu da balığa ən yüngül və ən möhkəm bədən quruluşu qazandırır.

Daha sonra balığın altıbucaqlı sümük lövhələrlə örtülü dərisini nəzərə alaraq hazırlanan avtomobil maketlərində avtomobil qapılarının xarici lövhələrinin möhkəmliyi 40% artmışdır. Bu texnika ilə istehsal edilmiş avtomobilin 30% yüngülləşməsinə baxmayaraq, toqquşma təhlükəsi də artmamışdır.

## Qutu balığının suyun təzyiqini azaldan forması elm adamlarına model olur

Bir avtomobil şirkəti "Bionika" adlı layihə həyata keçirərkən qutu balığının bədən quruluşunu model götürüb. Çünki aparılan tədqiqatlarda bu balığın suyun içində hərəkət edərkən suyun təzyiqini azaldan quruluşa malik olduğu müəyyən edilib. Əsasən, damlaya bənzər formalarda təzyiq azaldığına görə balığın qutu formasında olmasının uyğun olmadığı zənn edilirdi. Ancaq daha dərin tədqiqatlar nəticəsində qutu balığının su damlası ilə aerodinamik cəhətdən eyni uyğunluqda olduğu müəyyən edildi.

Dövrümüzdəki bir çox avtomobildə sürtünmə əmsalı 0.30 ikən qutu balığından ilham alaraq hazırlanan avtomobildə bu əmsal 0.19 olmuşdur. Sürtünmə əmsalının azalması havanın təzyiqinin də azalması deməkdir. Üzərindəki hava təzyiqinin azalması avtomobilin yanacaq ehtiyacını 100 km-də 4.3 litrə salaraq çox sərfəli olmasına səbəb olmuşdur.

Balığın bədən quruluşunu diqqətlə tədqiq etdikdə dərisinin saysız-hesabsız altıbucaqlı

## Ağac daşıdığınız kranla yerdən noxud yığa bilərsinizmi?

Fillərin xortumu çoxfunksiyalıdır. Fil bir tərəfdən xortumu ilə qopardığı böyük bir ağacın gövdəsini daşıyarkən digər tərəfdən bir noxud dənəsini yerdən götürüb ağzına ata bilir. Bundan əlavə, yuyunmaq və ya su içmək üçün 4 litr suyu xortumunda daşıyır və suyu fəvvarə kimi havaya püskürür. Lazım gəldikdə xortumundan xəbərləşmə vasitəsi kimi istifadə edərək sürüsünü toplayır və ya qaçmaq üçün onlara xəbərdarlıq edir. 50 min əzələdən ibarət bu orqan mükəmməl dizaynı sayəsində həddindən çox incəlik və dəqiqlik tələb edən hərəkətləri etmə qabiliyyətinə malikdir.

Kompyuter və elektronika texnologiyası dövrümüzdə böyük irəliləyişlər əldə etmişdir. Buna baxmayaraq, fil xortumunda olduğu kimi, həm kran qədər güclü, həm də noxud dənəsini tutacaq qədər dəqiq işləri eyni anda edən cihaz və robotlar hələ icad edilməmişdir.

Almaniyanın "Festo" şirkəti fil xortumunu təqlid edərək robot hazırlayıb. Bu robotun sənayedə köməkçi funksiya daşıması nəzərdə tutulur.





## KİRLİLİK DETEKTORU KİMİ TANINAN FİL BALIQLARI

Qərbi Afrika fil balığı (Gnathonemus petersii) Afrikanın 27ºC temperaturda isti, palçıqlı sularında yaşayır. Baş forması fil xortumuna bənzədiyinə görə fil balığı adlandırılan bu balıqlar yem tapmaq, qaranlıq, bulanıq sularda istiqamətlərini müəyyən etmək üçün zəif elektrik sahələrindən faydalanırlar. Zəif elektrik hasil edən bu balıqların başlarının üstündəki çıxıntılı hissədə elektrik qəbulediciləri var. Qəbul edilən elektrik impulslarının birləşdirilməsi üçün bir çox proses tələb edilir. Fil balıqları balıqlar aləmində ən ağır beyinə malik canlılardır. Bu cür beyin o qədər böyük və fəaldır ki, balığın metabolik enerjisinin 60%-ni sərf edir. Bu da insanlardakından 3 dəfə çoxdur.

İngiltərənin Burmaunt şəhərində kirliliyi ölçmək üçün fil balıqlarından faydalanaraq icad edilmiş detektorlardan istifadə edilir. Burmauntdakı bir su şirkəti Staur çayından götürdüyü su nümunələrini 20 fil balığının nəzarətinə vermişdir. Hər balıq çaydan gələn su ilə doldurulmuş akvariumda yaşayır. Akvariumlardakı qəbuledicilər elektrik impulslarını qəbul edərək kompyuterlərə ötürürlər. Əgər su kirlidirsə, balığın artan impulsları müəyyən edilərək kompyuter vasitəsilə həyəcan siqnalı verilir.

Əgər bir balıq elm adamına ilham mənbəyi təşkil edirsə və texniki cəhətdən bu qədər mükəmməldirsə, insanların öhdəsindən gəlmədiyi problemləri üstün sistemləri ilə həll edə bilirsə, bu canlının yaradılışı üzərində düşünmək lazımdır. Bu qədər mükəmməl canlının kor təsadüflər, şüursuz kortəbii proseslər nəticəsində əmələ gəlməsi, əlbəttə, qeyri-mümkündür. Bu gün elm adamlarının təqlid edərək faydalanmağa çalışdıqları bu üstün mexanizm Allah'ın sonsuz ağlının, elminin və yaratma sənətinin saysız-hesabsız nümunələrindən biridir. Şübhəsiz ki, uca Allah yoxdan, qüsursuz yaratmağa qadirdir. Rəbbimizin qədrini və böyüklüyünü təqdir edə bilməyənlər yaradılışdakı sənəti və qeyri-adiliyi görə bilmədiklərinə görə deyil, qapıldıqları təkəbbür hissinə görə yanılırlar. Bir ayədə bu belə xəbər verilir:

***Yer üzündə haqsız yerə təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam (mane olacağam). Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır. (Əraf surəsi, 146)***





# XƏSİSLİK ETMƏK, VAR-DÖVLƏT TOPLAMAQ QURAN ƏXLAQINA UYĞUN DEYİL

Quran əxlaqından uzaq yaşayan insanlarda Allah yolunda malından sərf etmək haqqında yanlış anlayış var. Bu anlayışa əsasən, vicdanı rahatlatmaq üçün insanlar mallarından cüzi şey verirlər. Beləliklə, böyük dini öhdəliyi yerinə yetirdiyini zənn edərək var-dövlətinin böyük hissəsini əllərində saxlayırlar. Halbuki, Quranda bu əməlin səhv olduğuna açıq-aşkar diqqət çəkilir. Ayələrdə belə buyurulur:

**Gördünmü üz çevirəni, (malından) azacıq verib (qalanına) xəsislik göstərəni? (Nəcm surəsi, 33-34)**

Allah´ın Quranda bildirdiyi malından Allah yolunda xərcləmək ibadəti isə tamamilə fərqlidir. Qurana əsasən, malından Allah yolunda sərf etməyin ölçüsü ehtiyacdan artıq qalandır.

**Səndən (Allah yolunda) nə xərcləyəcəklərini soruşurlar. De: "(Ehtiyacınızdan) artıq qalanını!" Allah ayələri sizə belə bəyan edir ki, bəlkə fikirləşəsiniz. (Bəqərə surəsi, 219)**

Bu hökmə riayət etməyənin itkisi təkcə az savab almaq deyil, bu insan, eyni zamanda, Allah´ın bəyənmədiyi hərəkəti etməklə axirətdə boynuna böyük məsuliyyət götürür. Çünki ehtiyacdan artığını əlində saxlayan şəxs Allah´ın qəti hökmünü bilərək yerinə yetirmir. Xəsislik edir və əslində, bütünlüklə Allah´a aid olan və Allah´ın onu sınamaq üçün verdiyi və Onun yolunda xərcləməsini bildirdiyi



mala haqsızlıqla sahib çıxıb özünə saxlayır. Allah inkarçılara xas olan bu hərəkəti edən insanları Quranda belə tərif edir:

**O kəslər ki, özləri xəsislik etməklə bərabər, başqalarını da xəsisliyə təhrik edir və Allah´ın öz lütfündən bəxş etdiyini gizlədirlər. Biz kafirlər üçün alçaldıcı əzab hazırlamışıq! (Nisa surəsi, 37)**

Əllərindən çıxma qorxusu ilə Allah´ın verdiyi malı və nemətləri gizlədənlərin axirətdəki aqibətləri Quran ayələrində belə izah edilmişdir:

**Ey iman gətirənlər! (Yəhudi) alimlərindən və (xaçpərəst) rahiblərindən çoxu insanların mallarını haqsızlıqla yeyir və (onları) Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ! O gün yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (və onlara): "Bu, sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınız mal-dövləti dadın!" - (deyiləcəkdir!) (Tövbə surəsi, 33-34)**

**O kimsə ki, mal yığıb onu dönə-dönə sayar. Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır. Xeyr! O, mütləq Hütəməyə atılacaqdır. Sən haradan bilirsən ki, Hütəmə nədir?! O, Allah`ın yanar odudur. (Hüməzə surəsi, 2-6)**

Əlbəttə, mömin bu ayələrdə tərif edildiyi kimi, xəsislik etməz və ya mal yığıb toplamaz. Ancaq çox cüzi də olsa, ayələrdə qınanan hərəkətə meyil etməz. İnsan malının böyük hissəsini Allah yolunda xərcləyə bilər. Ancaq ehtiyacından artıq olan çox az hissəsini özünə ayırmaqda və ya gələcək üçün saxlamaqda təhlükə görmürsə, yuxarıdakı ayələrdə tərif edilən hərəkətə meyil etmiş olar. Çünki xəsislik və mal yığıb saxlamağın ardında gələcək üçün narahatlıq, kasıblıq qorxusu, dünyanı axirətdən ön planda tutmaq kimi mühüm səbəblər dayanır. Bu narahatçılıqların səbəbi də Allah´a etibarda qüsur və təvəkkülsüzlükdür.

Təvəkkülsüzlük isə imani zəiflikdən qaynaqlanan ciddi problemdir. Göründüyü kimi, çox kiçik, əhəmiyyətsiz görünən nöqsanın altında mühüm çatışmazlıqlar yata bilər. Allah´ın digər hədlərini qorumaqdakı qüsurlar kimi, Allah yolunda xərcləməkdəki bu qüsur da insanın həqiqi imani vəziyyətini, ixlasını və səmimiliyinin dərəcəsini nümayiş etdirir. İxlaslı mömin kiçik mənfəətə tamahlanaraq dünya və axirətdə böyük itkiyə məruz qalmaqdan çəkinib qorxaraq Allah´ın bu hökmünü cidd-cəhdlə yerinə yetirər.

# MÖMİNLƏRİN BİR-BİRLƏRİNƏ OLAN SEVGİLƏRİ

Sevgi Allah'ın insanlara bəxş etdiyi ən böyük nemətlərdən biridir. Allah insan fitrətini sevməkdən və sevilməkdən, dostluqdan, yaxınlıqdan zövq alacaq, xoşlanacaq şəkildə yaratmışdır. Quran əxlaqına uyğun yaşayan insanlarla birlikdə olmaq, onlarla dostluq və sevgi içində yaşamaq isə iman gətirən insana bir çox nemətdən daha artıq zövq verir. Buna görə Allah'ın sevdiyi və razı qaldığı qullarına vəd verdiyi cənnət həqiqi sevginin, dostluğun və yaxınlığın əbədi olaraq böyük coşğunluqla yaşanacağı qeyri-adi gözəlliyə malik yerdir.

Allah'ın Quranda cənnət həyatına dair verdiyi ayələrdə daima sevinc, dostluq, sevgi, məhəbbət, gözəl söz və əmin-amanlıqdan bəhs edilir. Sevgi və dostluğun qarşısını alan hər şey cənnətdəki insanlardan uzaq tutulmuşdur. Allah bir ayədə cənnətə girən möminlərin qəlblərindən kinin çıxarıldığını bildirmişdir (Əraf surəsi, 43). Qısqanclıq, düşmənçilik, rəqabət, qəzəb, inciklik, küskünlük kimi sevgi və dostluğa mane olan bütün mənfi xüsusiyyətlər cənnətdən kənardır.

Cənnətlə müjdələnən müsəlmanların əsas xüsusiyyətlərindən biri onların dünya həyatında olarkən də Allah'ın elçilərini, peyğəmbərlərini və Allah'ın rizasını diləyən bütün müsəlmanları çox sevmələridir. Quranda möminlər arasındakı bu sevgi və dostluq belə bildirilir:

**Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, rüku edərək namaz qılır və zəkat verirlər. (Maidə surəsi, 55)**

İman gətirənlər Allah'ın rizasını qazanmaq üçün səy göstərən bütün saleh möminlərə yaxınlıq hiss edir, onları özlərinə yaxın dost tuturlar. Hər cür şəraitdə onlarla birlikdə olmaqdan böyük zövq alırlar. Bütün müsəlmanlara böyük vəfa və sədaqətlə bağlıdırlar. Bu sevgi əsil-nəcabət, milliyyət kimi şərtlərə və ya hər hansı mənfəətə əsaslanmır. Pulun, mövqeyin, mədəniyyət fərqinin və ya maddi dəyərlərin də heç bir əhəmiyyəti yoxdur. Allah'ın razı olduğu insandan möminlər də razıdır. Allah yolunda olan əməlisaleh möminlər Allah'ın ən sevdiyi qullarındandır. Buna görə möminlər də bir-birlərini çox sevir və bir-birlərinə çox bağlıdırlar. Quranın bir çox ayəsində möminlərin bir-birinə olan sevgilərindən, bağlılıqlarından, mərhəmətindən bəhs edilir. Bu ayələrdən bəziləri bunlardır:

**Hamılıqla Allah'ın ipinə möhkəm sarılın və ayrılmayın! Allah'ın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönələsiniz! (Ali-İmran surəsi, 103)**

**Həqiqətən, möminlər qardaşdırlar. Buna görə də qardaşlarınızın arasını düzəldin və Allah'dan qorxun ki, bəlkə, rəhm olunasınız! (Hucurat surəsi, 10)**

**Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər! (Saff surəsi, 4)**

Başqa ayədə isə Allah möminlər arasındakı bu sevgini belə bildirir:

**Onlardan əvvəl yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində ehtiyac duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. Nəfsinin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə qovuşanlardır! (Həşr surəsi, 9)**

Möminlər iman gətirən hər kəsi doğma qardaş qəbul edirlər. Başqa mömininin xeyrini, rahatlığını təmin etmək üçün heç bir fədakarlıqdan çəkinmirlər. Möminlərin bu sevgi anlayışı isə ancaq imanla və Quran əxlaqına uyğun yaşamaqla qazanılır. Allah bir ayədə iman gətirib saleh əməl sahiblərinə Öz Qatından sevgi yaradacağını belə bildirmişdir:

**Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)**

Peyğəmbərimiz (s.ə.v.) isə sevginin əhəmiyyətini və həqiqi sevgini duyan möminlərin üstünlüyünü bir hədisində belə bildirmişdir:



Hz. Ömər (r.a.) rəvayət edir: "Rəsulullah (əleyhissəlatu vəssəlam) buyurdu ki: "Allah'ın qulları arasında bir qrup var ki, onlar nə peyğəmbərlər, nə də şəhidlərdir. Üstəlik, qiyamət günü Allah qatındakı mövqelərinin ucalığına görə peyğəmbərlər də, şəhidlər də onlara qibtə edəcəklər." Orada olanlar soruşdu: " Ey Allah'ın Rəsulu! Onlar kimdir, bizə xəbər ver!" "Onlar aralarında nə qan qohumluğu, nə də bir-birlərinə bağışladıqları mal olmadığı halda Allah'ın ruhu (Quran) naminə bir-birlərini sevənlərdir. Allah'a and içirəm, onların üzü mütləq nurdur. Onlar bir nur üzərindədirlər. Xalq qorxduqda onlar qorxmazlar. İnsanlar kədərləndikdə onlar kədərlənməzlər."[1]

İman gətirənlərin bir-birlərinə olan bu sevgilərinin əsl mənbəyi isə Allah'a olan dərin sevgiləridir. Dünya həyatındakı məqsədləri Allah'ın rizasını, rəhmətini və cənnətini qazanmaq olan möminlər bütün həyatlarını Allah üçün yaşayırlar. Quranın **"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!" (Ənam surəsi, 162)** ayəsi ilə bildirildiyi kimi, gördükləri hər işdə, hər davranışda Allah'ın rizasını qazanmağı hədəfləyirlər. Hər şeylərini Allah'ın razılığını qazanmağa sərf edən möminlərin sevgiləri də ancaq Allah üçündür. Allah'ı bütün isimləri ilə tanıyan, Onun gücünə və böyüklüyünə hər an şahid olan, rəhmətini, sevgisini və şəfqətini həyatı boyu hiss edən möminin Allah sevgisi heç bir sevgi ilə müqayisə edilməyəcək qədər güclüdür. Möminlərə qarşı sevgiləri də, təməli Allah sevgisinə əsaslandığı və Allah'ın rizasını qazanmaq üçün sevdiklərinə görə güclü və dərindir. İman gətirənlərlə aralarındakı dostluğun axirətdə əbədiyyən davam edəcəyini bilmələri bu sevgilərini güclü və daimi edən başqa bir səbəbdir.

Peyğəmbərimiz (s.ə.v.) hədislərində möminlərin bir-birlərinə olan sevgilərinin Allah rizası üçün olduğunu belə xatırlatmışdır: Hz. Əbu Zərr (r.a.) rəvayət edir: "Rəsulullah (əleyhissəlatu vəssəlam) buyurdu: "Ən fəzilətli əməl Allah üçün sevmək, Allah üçün sevməməkdir"[2]

"İman əlaqəsinin ən möhkəmi Allah üçün dostluq, Allah üçün düşmənlik, Allah üçün sevgidir."[3]

Allah'ı çox sevən, Allah'dan qorxan, Onun razılığı üçün səmimi cəhd göstərən möminlər dünyaya gözəllik qazandıran xeyirli insanlardır. Bu üstün əxlaqlarına görə Allah'ın yaratdıqlarını da sevir, onlara qarşı şəfqət və mərhəmət hiss edir, onları qorumaq, onlara xeyir və gözəllik bəxş etmək istəyirlər. Allah möminlərin qəlblərindəki imanlarından, Allah qorxularından qaynaqlanan bu gözəl sevginin və Rəbbimizə dərin bağlılıqlarının əvəzində onları sevginin və sədaqətin ən gözəl məkanı olan cənnətlə mükafatlandıracağını müjdələmişdir.



İman gətirənlərin bir-birlərinə Allah'ı və möminləri sevməyi xatırlatması çox mühüm ibadətdir. Hər mömin cənnət sevgisini dünyada olarkən yaşamağa çalışmalı, yeganə dost olan Rəbbimizə və möminlərə sevgi və vəfa ilə bağlanmalıdır.

## MÖMİNLƏRİN SEVGİ VƏ HƏMRƏYLİKDƏN İRƏLİ GƏLƏN MƏNƏVİ GÜCLƏRİ

Allah'a və axirətə inanmayan insanların sevgi və dostluğunun kökündə əsasən dünyəvi dəyərlərə verilən əhəmiyyət və dünyəvi mənfəət durur. Bu insanlar birləşərək bir növ qarşılıqlı mənfəət üçün saziş bağlayır, qarşılıqlı şəkildə bir-birinə dəstək olur və beləliklə, müştərək mənfəət əldə etməyə çalışırlar. Tərəflərdən birinin mənfəət verən cəhəti aradan qalxdıqda ittifaq da pozulur. Bu şərtlər əmələ gəldikdə digər insanların çətin vəziyyətdə qalması və ya dəstəyə ehtiyacı olması digər tərəfin heç diqqətini cəlb etməz. Çünki qurulan bu ittifaq sadəcə güc birliyindən və mənfəət gözləntisindən qaynaqlanmışdır. Ona görə də gözləntilər yox olduqda birliyin pozulması da olduqca təbiidir.

Allah'ın "... Sən onların həmrəy olduqları**nı güman edirsən, lakin onların qəlbləri dağınıqdır. Bunun səbəbi onların ağılsız bir qövm olmalarıdır."** (Həşr surəsi, 14) ayəsi ilə insanlara xəbər verdiyi kimi, iman gətirməyənlər nə qədər həmrəy görünsələr də, əslində elə deyillər.

Dünyadakı insanlar arasında həqiqi dostluq və ittifaq əmələ gətirən yeganə güc ancaq "iman"dır. Məhşər günündən qorxan möminlər dostluqları ilə dünyada başlayıb axirətdə də əbədi davam edəcək möhkəm ittifaqın əsasını qoyurlar. Bir-birlərini heç bir mənfəət güdmədən, xalis niyyətlə və sadəcə Allah rizası üçün sevir, Allah rizası üçün dost olurlar. Təməli Allah sevgisinə və Allah qorxusuna əsaslanan bu əlaqənin pozulması Allah'ın istəyi xaricində heç cür mümkün deyil. İman gətirənlər Allah rizası üçün bir-birlərinə olan sevgilərindən aldıqları güclə böyük mənəvi güc əldə edirlər. Bir ayədə "... **Allah'ın rəhmətinə qovuşacaqlarına inananlar isə dedilər**:



**“Neçə dəfə olub ki, az bir dəstə Allah’ın izni ilə çox bir dəstəyə qalib gəlib! Allah səbr edənlərlədir!”** (Bəqərə surəsi, 249) sözləri ilə bildirildiyi kimi, qəlblərindəki imanla az sayda olsalar da, mənəvi cəhətdən böyük çətinliklərə qalib gələcək şövq və iradə qazanırlar. Gözəl əxlaqlarına görə Allah’ın yardımını və dəstəyini qazanırlar. Allah’ın **“... əgər möminsinizsə, siz üstünsünüz!”** (Ali-İmran surəsi, 139) ayəsilə bildirdiyi kimi, heç kimin aralarındakı münasibəti poza bilmədiyi, gücünü qıra bilmədiyi mənəvi qüvvə əldə edirlər.

Öz aralarında isə səmimi şəkildə Allah’ın rizasını istədikləri üçün heç vaxt qarışıqlıq, anlaşılmazlıq və ya ixtilafla qarşı-qarşıya gəlməzlər. Çünki Allah’ın sözü birdir. Quran ayələri açıq-aşkardır. Bütün inananlar Qurana qeyd-şərtsiz tabe olduğu və həmişə Allah’ın rizasının ən çoxunu qazanmaq üçün hərəkət etdiyi üçün ahəng və nizam meydana gəlir. Bütün işləri axıcı şəkildə asanlıqla həll olunur. Öz mənafelərinə zidd olduqda hər biri Quran əxlaqının və möminlərin mənafeyini güddükləri, qardaş-bacılarının nəfslərini öz nəfslərindən üstün tutuqları üçün güclü birlik qurulur.

Möminlər bir-birlərilə sonsuz axirət yoldaşı olmağa niyyət etdiklərinə görə dərin sevgi, hörmət və sədaqətlə bir-birlərinə bağlanırlar. Buna görə əsla rəqabətə, çəkişməyə və ya ixtilafa imkan vermirlər. Nə qədər çətinlik və ya sıxıntı ilə qarşılaşsalar da, Allah qorxularına və səmimi imanlarına görə ümidsizliyə qapılmaz, iradəsiz davranmazlar. Birində bir qüsur olduqda, digəri gözəl əxlaqla ona dəstək olub yaxşılığa təşviq edir. Daima bir-birlərinə yaxşılığı əmr edib pislikdən çəkindirdiklərinə görə imanları daha da güclənir, gücləri artır. Məqsədləri, cəhdləri və duaları həmişə eyni olan möminlərin imanları və sevgilərindən doğan bu mənəvi güclərini Bədiüzzaman Said Nursi bir sözündə belə bir nümunə ilə dilə gətirmişdir:

... Çünki necə ki insanın bir əli digər əli ilə rəqabət aparmaz, bir gözü digər gözünü tənqid etməz, dili qulağına etiraz etməz, qəlb ruhun ayıbını görməz. Bəlkə bir-birinin nöqsanını tamamlayır, qüsurunu örtür, ehtiyacını ödəyir, vəzifəsinə yardım edir, yoxsa o vücudu-insanın (insan bədəninin) həyatı sönər, ruhu qaçar, cismi də dağılar. Necə ki, bir fabrikin çarxları bir-birilə rəqabətlə mübarizə aparmaz, bir-birinin önünə keçməyə çalışmaz, bir-birinin qüsurunu görərək tənqid etmək məqsədilə şövqünü qırıb ümidsizliyə

salmaz. Bəlkə bütün məziyyətlərilə bir-birinin hərəkətini ümumi məqsədə yönəltmək üçün kömək edərlər, həqiqi həmrəylik və birliklə yaradılış qayələrinə doğru irəliləyərlər. Əgər zərrə miqdarda hücum, zorbalıq qarışsa, o fabriki qarışdıracaq, nəticəsiz, meyvəsiz qoyacaq. Fabrikin sahibi də o fabriki tamamilə dağıdıb məhv edəcək...

## PEYĞƏMBƏRİMİZİN (S.Ə.V.) SEVGİNİ TÖVSİYƏ EDƏN SÖZLƏRİ

Mikdam İbn Madikərib (r.a.) belə rəvayət edir:

*"Rəsulullah (aleyhissəlatu vəssəlam) buyurdu: "Biriniz qardaşının əxlaqını (Allah üçün) sevirsə, bunu ona söyləsin."4*

*Ata əl Xorasan rəvayət edir: "Rəsulullah (əleyhissəlatu vəssəlam) buyurdu: "Əl sıxın ki, qəlblərinizdəki kin getsin, hədiyyələşin ki, bir-birinizə sevgi doğsun və aradakı düşmənçilik bitsin."5*

*"Hədiyyələşin, bir-birinizi sevin, bir-birinizə yemək hədiyyə edin. Bu, ruzinizi artırar."6*

*"Allah Qatında ən sevimliniz dostluq quran və onunla dostluq qurulanlardır. Allah nəzdində isə ən sevimsiziniz də dostlarının arasını vuranlardır."7*

*"İki qardaş (iki dost) iki əl kimidir, biri digərini yuyur."8*

*"Bir-birinizə arxa çevirməyin, bir-birinizə kin bəsləməyin. Bir-birinizi qısqanmayın. Bir-birinizlə dostluğunuzu kəsməyin. Ey Allah'ın qulları, qardaş olun."9*

*"Sizə verdiyi nemətlərinə görə Allah'ı sevin, məni də Allah məni sevdiyi üçün sevin."10*

*"Allah üçün təvazökar olanı Allah ucaldar. Təkəbbürlənəni Allah alçaldar. Allah'ı çox zikr edəni Allah sevər."11*



*1 Kütüb-i Sitte, 3345*
*2 Kütüb-i Sitte, 10-cu cild, səh.140; Ebû Dâvud, Sünnet 3, 4599*
*3 Kütüb-i Sitte, 10-cu cild, səh.141*
*4 Kütüb-i Sitte, 10-cu cild, səh. 135; Ebû Dâvud, Edeb 122, (5124); Tirmizi Zühd 54, (2393)*
*5 Muvatta, Hüsnü'l-Hulk 16, (2, 908)*
*6 Kütüb-i Sitte, 16-cı cild, səh. 239*
*7 İhya'u Ulum'id-Din Huccetü'l-İslam, İmam Gazali, 2-ci cild, səh.365*
*8 İhya'u Ulum'id-Din Huccetü'l-İslam, İmam Gazali, 2-ci cild, səh.394*
*9 Müslim İhya'u Ulum'id-Din Huccetü'l-İslam, İmam Gazali, 2-ci cild, səh.407*
*10 Tirmizi İhya'u Ulum'id-Din Huccetü'l-İslam, İmam Gazali, 4-cü cild, səh.594*
*11 İbn Mace İhya'u Ulum'id-Din Huccetü'l-İslam, İmam Gazali, 4-cü cild, səh.655*
*12 Risale-i Nur Külliyatı, 21. Lema, səh. 668-669*



Supermarketdən aldığınız məhsulların qiyməti onların üstündə yerləşən barkodların kassada oxunması ilə müəyyən edilir. Son illərdə gündəlik həyatımızı asanlaşdırmaq üçün istifadə edilən barkod sisteminin bir bənzəri də insan üzündə mövcuddur.

Uca Allah'ın bənzərsiz fərqlilikdəki yaratma sənətinin təcəllisi kimi insanların hər biri fərqli üzə malikdir. Ancaq üzlər nə qədər müxtəlif və çox olsa da, tanış birinin üzünü tanımaq bir neçə saniyə çəkir. Bəs bu tanıma prosesi necə baş verir?

## Beyindəki üz tanıma prosesi necə baş verir?

Üzün tanınması vizual korteksdə baş verən çox mürəkkəb prosesdir. Bu tanıma prosesinin beyində necə həyata keçdiyini araşdıran elm adamları çox təəccüblü nəticələrlə qarşılaşmışlar. Çünki aparılan tədqiqatlarda üzün beyin tərəfindən oxunan barkod sisteminə malik olduğu kəşf edilmişdir. Bu sistemə əsasən:

Əvvəlcə qaşlar, gözlər, dodaqlar kimi üfüqi xətt əmələ gətirən xüsusiyyətlər beyin tərəfindən qavranılır, sonra bu xətlər qara və ağ rənglərdə kodlanır.

Dəri və yanaqlar parlaqlığına görə ağ, dodaqlarımız, qaşlarımız və göz çuxurlarımız da kölgəliklərinə görə qara kodlanır.

# İNSAN ÜZÜNDƏKİ BARKOD SİSTEMİ MÖCÜZƏSİ



Tədqiqatı aparan dr. Dakin: "Bu cür üfüqi məlumat xətləri supermarket barkodlarını xatırladır", - deyərək bu kod sisteminə diqqət çəkmişdir.

Məlum olduğu kimi, supermarket barkodları məlumat əldə etməyin ən effektiv yoludur. Düz, təkölçülü xətlər, saylar kimi 2 rəqəmli simvollardan daha asan tanınır. Üz tanımanın saniyələr ərzində sürətlə həyata keçirilməsi üçün barkod sistemindən istifadə edilməsi də Rəbbimizin Alim (hər şeyi çox yaxşı bilən), Fatir (yaradan, icad edən) və Bədi (örnəksiz yaradan, yoxdan yaradan) isimlərinin təcəllisidir. Uca Allah'ın yaratma elmi bir ayədə belə bildirilmişdir:

**Göyləri və yeri yoxdan yaradan Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol !" –deyər, o da olar. (Bəqərə surəsi, 117)**

## Barkod sisteminin səbəb olacağı mühüm elmi nailiyyətlər



Elm adamları üzdəki barkod sisteminin “daha yaxşı üz tanıma proqramları” hazırlamaq baxımından çox vacib olduğunu bildirirlər. Üz tanıma proqramları nə qədər təkmil olsalar da, insanların çoxluq təşkil etdiyi yerlərdə üzləri tanımaqda çətinlik çəkirlər. Ancaq üzdəki bu barkod sisteminin təqlid edilməsi polislərin hava limanında cinayətkarları müəyyən etmək üçün istifadə etdiyi CCTV kameralarının təkmilləşdirilməsinə kömək edəcək.

Barkod sistemi uca Allah’ın böyük lütfüdür. Çünki bu barkod sistemi olmasaydı, anamızı, atamızı, uşaqlarımızı, dostlarımızı, qısaca desək, sevdiyimiz insanları tanımağımız çətinləşər, hətta qeyri-mümkün olardı.

## Cisimlərin sürətlə hərəkət etməsi barkod sisteminin işləməsinə mane olmur



Uca Allah’ın yaratdığı barkod sistemi beyinin vizual korteksində hərəkətli görüntünün tanınması üçün çox əlverişli modeldir. Birdən çox görüntü beyinin vizual korteksində əməliyyatdan keçirildikdə müxtəlif görüntülər arasından barkodu ayırd etmək üçün asanlaşır və bu sayədə üzün görüntüsü beyində dəyişmir. Buna görə də nə qədər sürətlə hərəkət etsə də və ya nə qədər çox vizual obyektin olduğu yerdə olsa da, üz dərhal tanınır. Üstəlik, bu tanıma prosesi əsnasında göz mükəmməl aydınlıqda görür. Yüksək sürətlə hərəkət edən cisimlərin olduğu yerlərdə fotokameraların çəkdiyi şəkillərdə görüntünün arxasından uzanan bulanıq yansıma izləri nəzərə çarpır və görüntünün keyfiyyəti pozulur. Ancaq üz nə qədər çox sayda hərəkətli cisimlərin olduğu mühitdə olsa da, həmişə tanınır.

## Barkod sistemi insan ilk yaradıldığı andan etibarən mövcuddur

Yaşadığımız kompyuter əsrində məhsulların alqı-satqısını asanlaşdıran barkod sistemi uzun illər təhsil almış elm adamlarının mühüm texnoloji icadı hesab edilir. Halbuki, bizim yeni istifadə etməyə başladığımız bu sistem üzümüzdə ilk dəfə yaradıldığımız andan etibarən mövcuddur.

Şübhəsiz ki, bu barkod sistemi bədənimizin hər yerində qüsursuz yaradılış olduğunu sübut edir. Bu sistem bütün xüsusiyyətləri ilə ağıl, məlumat, ölçmə və dəyərləndirmə kimi prosesləri tələb etdiyinə görə, barkod sistemi kimi nizamlı və qüsursuz sistemin təkamülçülərin iddia etdiyi kimi təsadüfən əmələ gəldiyini düşünmək olmaz. Bədənimizdəki hər sistem kimi bu xüsusi sistem də ən üstün xüsusiyyətlərlə yaradılmışdır. Uca Rəbbimiz qüsursuz yaratma sənətinin dəlillərini insanlara müxtəlif nümunələrlə göstərir. Rəbbimizin canlı və cansız aləm üzərindəki hakimiyyəti və bənzərsiz yaratması bir ayədə belə bildirilir:

**Rəbbiniz olan Allah Odur! Ondan başqa heç bir tanrı yoxdur. Hər şeyi yaradan Odur. Buna görə də yalnız Ona ibadət edin. O, hər şeyə vəkildir! (Ənam surəsi, 102)**

# Uşaqlara Allah'ı tanıtmağın əhəmiyyəti



Allah'ı tanımayıb dinini öyrənmədən yetişən uşaq, şübhəsiz ki, həyatında bir çox çətinliklə rastlaşar. Allah sevgisi və Allah qorxusu əvvəldən ona öyrədilmədiyi üçün qarşılaşdığı bütün hadisələrdə nəfsi ilə hərəkət edər, yalan danışaraq özünü xilas edəcəyini zənn etdiyi üçün asanlıqla yalan danışar, haqsız yolla mənfəət təmin etməyi normal qarşılayar, yardımsevər və mülayim olmaq əvəzinə, üsyankar və eqoist olar. Hər şeydən əvvəl, dünyada daim zərərə uğrayacağı kimi, axirətini də itirər, Allah'dan və dindən uzaq həyat sürdüyü üçün isə cənnətə düşmək imkanını sonsuza qədər itirmiş olar.

Bu səbəbə görə, valideynlərin uşağa etməli olduğu ilk xeyirxah iş Allah sevgisini və Allah qorxusunu kiçik yaşda olarkən ona öyrətməkdir. Uşağa əvvəlcə onu Allah'ın yaratdığını, bütün kainatın yaradıcısının Allah olduğunu açıqlamalı, Ondan başqa heç kimin heç bir şeyə güc çatdıra bilmədiyini, bütün gücün Allah'dan olduğunu, Onun hər şeyi gördüyünü, bildiyini və eşitdiyini, bütün insanlara qarşı çox mərhəmətli və çox ədalətli olduğunu, həmçinin sahib olduğu hər şey üçün



Ona şükür etməli olduğunu, axirətin qəti həqiqət olduğunu, bir gün ölüb Allah'ın hüzuruna gedəcəyini və dünyada göstərdiyi bütün davranışlar üçün hesab verəcəyini öyrətməlidir. Uşaq ətrafında gördüyü hər bir canlını, rəngarəng çiçəkləri, heyvanları, bitkiləri, torpaqdan mükəmməl dad və qoxuya sahib şəkildə çıxan çiyələkləri, alma və portağalları, nar və bananları Allah'ın yaratdığını, xəstələndiyi zaman ona şəfa verənin Allah olduğunu, Allah'ın onu çox sevdiyini, dualarını eşitdiyini öyrənməli, tək dostu və köməkçisinin Allah olduğunu ən kiçik yaşlarından etibarən bilməlidir.

Bundan başqa, uşaq Quranda təsvir edilən gözəl əxlaq üzrə yetişməlidir. Əslində, Quranda əmr edilən gözəl əxlaqın yaşandığı bir evdə yetişən uşaq təbii olaraq gözəl əxlaqı mənimsəyər. Allah üçün sevməli olduğunu, sahib olduğu hər şeyi digərləri ilə paylaşmağı, hər fürsətdə gözəl söz söyləməyi, kasıblara kömək etməyi, insanlarla lağ etməməyi, eqoist olmamağı, fədakar olmağı, təvazökar olmağı böyüklərindən görən uşaq gözəl əxlaqı mütləq tətbiq edər.



Qısaca desək, uşaqlara edilən ən böyük yaxşılıq onlara bütün gücün Allah'a aid olduğunu hiss etdirmək və Onunla dost olmağı təmin etməkdir. Əgər bir uşaq inanclı və təvəkküllü yetişərsə, möhkəm xarakterə sahib olar. Amma bütün gücün Allah'dan olduğunu bilməzsə, həyatı boyu insanlardan qorxar, onlardan kömək umar. Digər tərəfdən, uşaq imanlı və təvəkküllü yetişdiyi təqdirdə, bu, onun bütün həyatı boyu rahat və dinc yaşamasına səbəb olar. Belə olduqda, uşaq nə qədər kiçik olursa olsun, yetkin mömin ağlına və əxlaqına sahib olar. Qarşılaşdığı hadisələr qarşısında məyus olmaz, xoşuna gəlməyən bir şeylə qarşılaşdığında ağlamaz və şikayətlənməz. Hadisələrin həmişə Allah'ın idarəsində olduğunu bilər, təvəkkül edib gözəl rəftar göstərər. Unutmaq olmaz ki, dinimiz hətta adi bir uşağın anlayacağı qədər açıq və asandır. Bu səbəbdən, uşaqlara mütləq Quranı oxumaq, ayələri onlara açıqlamaq, Peyğəmbərimizin (s.ə.v) gözəl əxlaqını izah etmək, hər şeyin doğrusunu onlara öyrətmək lazımdır.







# ŞÖVQLƏ ÇALIŞAN CANLILARIN MÖHTƏŞƏM XÜSUSİYYƏTLƏRİ

Bütün canlılar Rəbbimizin ilhamı ilə hərəkət edirlər. Allah bu canlılara nə əmr edirsə, hamısı bu əmrə tam itaət və təslimiyyətlə tabe olurlar. Bir çox canlının kiçik bədənlərinə baxmayaraq, həddindən artıq fəal olmasının səbəbi də budur. Dünyanın ən çalışqan canlılarına aid bir neçə misal çəkək.

## Bənd qurmaq üçün böyük ağacları kəsən qunduzlar

Ən çalışqan canlılardan biri qunduzlardır. Addım-addım hərəkət edərək həyata keçirdikləri işləri sayəsində qunduzlar yaşadıqları mühiti dəyişdirməkdə bütün digər heyvanlardan daha bacarıqlıdırlar. Çox ağır, hündür ağacları belə iti dişləri ilə kəsə bilir və bu ağaclardan sürətlə axan suyun qarşısını kəsmək üçün bənd qurmaqda istifadə edirlər. Bir qunduz ildə 200-ə qədər ağac kəsir. Üstəlik, bunun hamısını dişləri ilə edir. Zaman ərzində dişləri aşınır və bəzən də qırılır. Ancaq bu qunduzlar üçün maneə deyil, çünki kəsici ön dişləri çox qısa müddətdə yenidən uzanır. Ancaq təkcə ön dişləri uzanır, əgər arxa dişləri də uzansaydı, ağız quruluşları pozular və dişlərindən istifadə edə bilməzdilər.

Qunduzların bənd inşa etmək üçün olan bu şövqü, əlbəttə, Rəbbimizin bu canlılara ilhamıdır. İndiyə qədər yaşamış bütün qunduzlara və əlbəttə, digər heyvanlara da nə etməli olduqlarını ilham edən Rəbbimiz bənzərsiz ağıl sahibidir. Allah hər şeyə qadirdir və bütün canlıları yaradandır. Bir ayədə Rəbbimizin yaratma elmi belə xəbər verilmişdir:

**Allah hər canlını bir sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir! (Nur surəsi, 45)**

## Nəslini davam etdirmək üçün çoxlu bala dünyaya gətirən dovşan

Qida zəncirinin ucunda yerləşən bir canlı üçün sürətlə nəslini davam etdirmək, demək olar ki, ölüm-dirim məsələsidir.

Balalarını dünyaya gətirmək üçün dovşanlar sürətlə hərəkət edirlər. Bir dişi dovşan ildə 1 dəfəyə 4-6 bala dünyaya gətirir. Riyazi cəhətdən bu çoxdur.

Dovşanlar bəzi yerlərdə zərərli surətdə çoxalırlar. Məsələn, Avstraliyada yırtıcı növlər olmadığına görə, dovşanlar təbii mühitə buraxıldıqda çox qısa müddətdə saylarını artırmış və 100 ildən də qısa müddətdə 600 milyona çatmışlar.

Allah həyat verəndir. Canlıları yaradan da, yaradıqlarından yeni canlılar çıxaran da Odur. Bütün canlılar Onun sayəsində yaşayırlar. Həyatlarını, düşündükləri kimi, ancaq ata-analarına deyil, ata-analarını da, onları da yaradan uca Allah'a borcludurlar. Quranda Allah belə buyurmuşdur:

**Sizləri yer üzündə yaradıb törədən Odur. Siz Onun hüzuruna cəm ediləcəksiniz. (Muminun surəsi, 79)**

## Ov zamanı fəallıq göstərən dişi aslanlar

Arı koloniyalarında olduğu kimi, aslanlar arasında da ən ağır işləri dişilər görür. Ov tapmaq və balaları yetişdirmək kimi işlərin çoxunu dişilər öhdəsinə götürür. Böyük ətyeyən heyvanları, hətta bəzən fil və zürafə kimi öz boylarından qat-qat böyük heyvanları belə təkbaşına tuta bilirlər.

Dişilərin tam əksinə, erkək aslanlar vaxtlarının çoxunu dincələrək və dişilərin tutduğu ovla qidalanaraq keçirirlər. Ancaq balaları öldürmək istəyən digər erkək aslanlardan və kaftarlardan qoruyurlar.

## Böyük güc və enerji sərf edən qarışqalar

Dünyada minlərlə qarışqa növü var və hamısı müxtəlif şəkildə qidalanırlar. Bəziləri ətyeyəndir, həşəratlar və tutduqları heyvanlarla qidalanırlar. Digərləri milyonlarla bitki kökünü toplayıb yeraltı anbarlarda ehtiyat toplayır, hətta bəziləri topladıqları yarpaqlardan qida kimi göbələk becərirlər.

Növündən asılı olmayaraq, bütün qarışqalar çox güclüdürlər, öz çəkilərindən 10-50 dəfə artıq yük qaldıra bilirlər. Bu qüvvələrindən qida toplamaqda və koloniyalarını düşmənlərdən qorumaqda istifadə edirlər. Bütün canlılar kimi, qarışqalar da mükəmməl davranışları və çalışqanlıqları ilə bilik və ağılın əsl mənbəyi olan Allah tərəfindən yaradılıblar. Quranda bu həqiqət belə bildirilmişdir:

**Göylərin, yerlərin və onların arasında olanların mülkü Allah'a məxsusdur. O, istədiyini yaradar, Allah hər şeyə qadirdir! (Maidə surəsi, 17)**



# Heyvanların ancaq vəhşi cəhətlərini göstərən kanallar bir növ darvinist təbliğat aparırlar



Xüsusilə son dövrlərdə TV kanallarının sənədli film proqramlarında amansız, vəhşi təbiət görüntüsü nümayiş etdirilir. Demək olar ki, proqramlarda canlıların ovlama görüntülərindən başqa heç bir səhnə göstərilmir. Canlıların möhtəşəm quruluşu, fədakar, ağıllı davranışları haqqında heç bir məlumat verilmir.

İsrarla bu cür görüntülərin sənədli film adı altında göstərilməsi əslində bir növ darvinist təbliğat metodudur. Bu yolla darvinizm və ya təkamül nəzəriyəsinin adı çəkilmədən, darvinist ideologiyanın əsasını təşkil edən vəhşilik, mübarizə və qarşıdurmanın təbiətdə "təbii olaraq" mövcud olduğu təlqin edilir. Bu sənədli filmlərə baxan insanlarda canlılar arasında güclünün zəifi əzdiyi bir sistemin hökm sürdüyü təsəvvürünü formalaşdırmağa çalışırlar. Bu təlqini alan tamaşaçılar tarixin ən böyük kütləvi yalanına, yəni təkamül nəzəriyyəsinə bir növ alışdırılırlar.

Güclünün zəifi əzdiyi və beləcə zəif növlərin aradan çıxaraq güclü növlərin həyatda qaldığını iddia edən təkamül nəzəriyyəsinin əsas batil ideologiyasını mənimsəyirlər. Bir sözlə, "sənədli film" adı altında göstərilən BU VƏHŞİ SƏHNƏLƏRLƏ AÇIQ-AŞKAR DARVİNİZM TƏBLİĞATI APARILIR.

Təəccüblüdür ki, bu kanallarda HƏMİN CANLILARIN QEYRİ-ADİ XÜSUSİYYƏTLƏRİNƏ VƏ FƏDAKAR DAVRANIŞLARINA HEÇ YER VERİLMİR. Bir canlının digərini ovlayaraq qida ehtiyacını təmin etməsi doğrudur, canlıların bir qismi bu cür yaradılıblar. Ancaq ovlamaq canlının minlərlə xüsusiyyətindən sadəcə biridir. Heyvanlar o qədər möhtəşəm xüsusiyyətlərə malikdir ki, sözügedən kanallarda bu mövzulara heç yer verilməməsi həqiqətən təəccüblüdür. Fillərin sürü halında bala fili qorumaq üçün qeyri-adi tədbir görməsi, timsahın balalarını dişlərinin arasında dənizə qədər daşıması, dişi və erkək tsixlosom balıqlarının yumurtalarını zərər görməməsi və daha çox oksigen alması üçün növbə ilə yelləməsi, erkək pinqvinlərin qış boyu heç yemək yemədən və hərəkət etmədən yumurtalarını ayaqlarının üstündə saxlaması kimi möcüzəvi xüsusiyyətlərdən əsla bəhs edilmir. Quşların yuva qurma qabiliyyətləri, arıların qüsursuz bucaq altında pətək qurma bacarıqları, qunduzların inşa etdikləri bəndlər, termitlərin metrlərlə hündürlükdə evlər tikməsi, saniyədə 1000 dəfə qanad çırpan həşəratlardakı ehtişamdan heç bəhs edilmir.

## Canlılar aləmindəki gözəl xüsusiyyətlərin izah edilməsi nə üçün vacibdir?

Darvinizm təbliğatı üçün əsasən demoqoqluqdan istifadə edir və hiyləgər yollarla gündəmə gətirilir. Elmi dəlillərlə tamamilə təkzib edilmiş nəzəriyyə olduğuna



görə elmdən qaçır, gizli demaqoqluq metodları ilə təbliğatını davam etdirməyə çalışır (bax: Darwinist Propaganda Yöntemleri). Bəzi mühafizəkar kanallarda vəhşi sənədli filmlərin göstərilməsi də bu oyunun bir hissəsidir. Sözügedən kanallar bilərək və ya bilməyərək bu tələyə düşüblər. Bu oyunla darvinistlər mühafizəkar təbəqəni də təsir altına salmağa çalışırlar. Təkamül nəzəriyyəsinin saxtakarlıq olduğunu, təsadüfləri ilahlaşdırdığını bilməyən insanlar da bu hiyləgər təbliğatdan mənfi təsirlənirlər.

Məlum olduğu kimi, bəzən mühafizəkar mətbuatda birbaşa təkamül xarakterli xəbərlər dərc edilir, bəzisi səhvini anlayıb dərhal bu xəbərləri götürür, bəziləri hələ də bu ciddi səhvə davam edirlər. Bütün dünyaya hakim olan darvinist diktatorluq burada da təsirini göstərir. Bəzi TV kanallarında gizli aparılan təkamül təbliğatı da ya bu məlumatsızlığın nəticəsidir, ya da darvinist təlqin sistemi burada da təsirini göstərir.

Canlılar aləmi möhtəşəm, heyranedici xüsusiyyətlərlə doludur. Bu xüsusiyyətlərin hər biri insanın Allah`a iman gətirməsinə, Allah`ın ucalığını və böyüklüyünü təqdir etməsinə səbəbdir. Ona görə TV kanalların Allah`ın üstün sənətini göstərən bu incəlikləri tanıtması daha doğru olar. Əks təqdirdə, bütün dünyaya bəla, müharibə, qırğın, kommunist və faşist ideologiyaların qanlı rejimlərini gətirən, hələ də dünyada vəhşiliyin, sevgisizliyin, anarxiyanın səbəbi, PKK terroru da daxil olmaqla bütün terrorçu hərəkatların ideoloji əsası olan və təsadüfləri ilahlaşdıraraq Yaradanın varlığını inkar etmək məqsədini güdən (Allah`ı tənzih edirik) batil bir nəzəriyyəni dəstəkləyərlər.

Sənədli filmlərdə heyvanların ancaq vəhşi cəhətlərini göstərən bütün kanallar təhlükəni görməli, hansı səhvə yol verdiklərini dərk etməli və təcili surətdə bunun üçün tədbir görməlidirlər. İman həqiqətlərini göstərərək insanların imanına səbəb olmaq üçün əllərində çox mühüm imkanları var, bundan Allah`ın rizası üçün mütləq ən gözəl və təsirli şəkildə istifadə etməlidirlər.

# Göz Ardı Edilən Quran Hökmləri



### Başqalarına Nəsihət Verib Özünü Unutmamaq

**“Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki, özünüz kitab oxuyursunuz. Məgər başa düşmürsünüz?” (Bəqərə surəsi, 44).**

Quranı yaxşı bilən zəkalı və təcrübəli insan başqalarının dinlə bağlı səhv və nöqsanlarını ən kiçik incəliyinə qədər düzəldə, bu məsələdə onlara nəsihət verə, xəbərdarlıq edə bilər. Bu, müsbət haldır, lakin bu, insana həmin səhv və günahları özünün də etməsinə haqq qazandıra bilməz. Əksinə, insan başqalarına verdiyi nəsihətdən özü də ibrət almalı və həmin səhvləri etməməyə diqqət yetirməlidir. Yoxsa başqalarına verdiyi nəsihət savab deyil, axirətdə onun əleyhinə dəlil kimi çıxar.

Başqasının səhvini üzə çıxara bilən insanın eyni səhvi öz nəfsində üzə çıxara bilməməsi kimi hal mümkün deyil. Əlbəttə, o, öz səhvlərini və günahlarını da bilir. Bu isə onun qeyri-səmimi olduğunu göstərir. Məsələn, yalançı birinin insanları doğruluğa, riyakar birinin insanları səmimiyyətə, namaz qılmayan birinin isə insanları namaz qılmağa çağırması çox böyük qeyri-səmimilik və ikiüzlülükdür. Yuxarıdakı ayənin sonunda belə insanların “məgər başa düşmürsünüz?” sözləri ilə xəbərdar edilmələri də, dediklərinin ən əvvəl özlərinin yerinə yetirmələrinin lazım olduğunu bildirir.

Belə ikiüzlü hərəkətlərin əsasını insanlar üzərində mənəvi üstünlük əldə etmək, hörmət edilən, sözü dinlənilən, sözükeçən insan olmaq kimi Qurandankənar azğın düşüncələr təşkil edir. Əlbəttə, belə davranan insanın əsas məqsədi Allah’ın hökmlərinin, dinin maraqlarının qorunması, batilin yox olması, möminlərin səhv və günahlarının düzəlməsi deyil. Onun bu xəbərdarlıqları həmin səhvlərin edilməsi məsələsindəki həssaslıqdan və Allah qorxusundan irəli gəlsəydi, şübhəsiz ki, eyni səhvləri etməkdən ən çox özü çəkinərdi. Belə insanlar möminlərin səhv və günahlarını özlərinin məqam, vəzifə və etibar qazanmaları üçün böyük fürsət sayırlar. Halbuki, dini mövzulardan, Quranda bildirilən hökmlərdən nəfsi hörmət və etibar qazanmaq üçün istifadə etmək həmin insanı axirətdə böyük fəlakətə apara bilər.

Özündə olan səhvi başqa mömin qardaşında da gördüyü zaman mömin insanın edəcəyi ən doğru və səmimi hərəkət ona ən əvvəl eyni səhvin özündə də olduğunu demək, bununla bağlı daim bir-birinə xəbərdarlıq edərək, ortaq səhvlərini düzəltməkdə bir-birini dəstəkləmək və təşviq etməkdir.

# Allah'ın İsimlərindən biri: MÜVƏFFİ (əhdini yerinə yetirən, tam verən, ödəyən)

***Onların nəyə ibadət etdiklərinə şübhə etmə. Onlar da atalarının əvvəllər ibadət etdiyi kimi ibadət edirlər. Şübhəsiz ki, Biz onların cəzasını əskiltmədən tam verəcəyik. (Hud surəsi, 109)***

İnsanın ömrü boyu hər etdiyi əməl, hər düşündüyü Allah qatında yazılır. Ən kiçik təfərrüat belə unudulmur. Ayədə belə buyurulur: ***"... (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır". (Loğman surəsi, 16)***

Hesab günü gəldiyi zaman hamı öz əməllərini görəcək və buna uyğun da əvəz alacaq. Allah Quranda belə bildirir:

***O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən (əvəzini) alacaqdır. Zərrə qədər pislik edən də (əvəzini) alacaqdır. (Zəlzələ surəsi, 6-8)***

O gün kitablardakı əməllər hesab günü üçün xüsusi olaraq hazırlanmış həssas tərəzilərdə ölçüləcək. Allah'ın ədaləti qarşısında heç kimə zərrə qədər haqsızlıq edilməyəcək:

***Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)***

Dünyada edilən hər kiçik əməllər belə bu tərəziyə qoyulacaq. Veriləcək qarşılıq bu həssas tərəzinin ağır tərəfinə görə olacaq:

***(O gün) kimin tərəziləri ağır gələrsə, xoşbəxt güzəran sürəcək. Kimin tərəziləri yüngül gələrsə, məskəni Haviyə olacaqdır. Sən haradan biləsən ki, o nədir? O, çox qızmar bir oddur! (Qariə surəsi, 6-11)***

Beləliklə, Allah öz ədaləti ilə hamının gördüyü əməllərin qarşılığını tam olaraq verəcək. Digər tərəfdən, Allah insanların dualarına və əməllərinə bu dünyada da qarşılıq verir. Bu, möminlər üçün böyük lütf olduğu halda, inkarçılar üçün isə qorxulu tələdir. Allah ayələrində bu aldanışı belə bildirir:

***Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 15-16)***

# QULAQDAKI QIZIL NİSBƏT EŞİTMƏNİ NECƏ ASANLAŞDIRIR?



**"Sizin üçün qulaq, göz və ürəklər yaradan Odur..." (Muminun surəsi, 78)**

Qulağın quruluşundakı qızıl nisbət eşitmə prosesini necə mükəmməl edir?

Səsin mənbəyini hər an necə təyin edirik?

İlbiz adlanan orqanın eşitmə prosesindəki rolu nədir?

Sənətkarlar, elm adamları və dizaynerlər tədqiqat apararkən və ya məhsul hazırlayarkən qızıl nisbətlə yaradılmış insan bədənini ölçü götürürlər. Leonardo da Vinçi və Korbüzye də əsərlərində qızıl nisbətlə yaradılmış insan bədənini ölçü götürüblər. Ancaq insan bədəninin quruluşunu dövrümüzə qədər bir çox elm sahəsi çərçivəsində tədqiq edənlər apardıqları riyazi təhlillər nəticəsində qulağın quruluşu ilə bağlı bu mühüm suallara cavab tapıblar.

Son illərdə aparılan bioloji tədqiqatlar göstərmişdir ki, insan orqanizmindəki qızıl nisbət təkcə insanın fiziki görünüşündə deyil. İnsan beyninin, sinir sisteminin, duyğu orqanlarının, ağciyər sisteminin və DNT-sinin lazımi funksiyalarını yerinə yetirməsi üçün də qızıl nisbət zəruridir. Buna görə, dövrümüzdə insan orqanzimindəki bir çox orqanın və sistemin bir-birilə uyğunluq içində işləməsinin qızıl nisbətlə yaxından əlaqəsi olduğunu düşünürlər.

Orqanizmimizdə bu əlaqənin çox açıq şəkildə göründüyü ilk yerlərdən biri eşitmə prosesini həyata keçirən qulağımızdır. Ancaq qulaqdakı həndəsi quruluşa keçməzdən əvvəl, eşitmə prosesinin necə baş verdiyini qısaca xatırlamağımız qızıl nisbətlə eşitmə arasındakı əlaqəni görmək baxımından vacibdir.

## Eşitmə prosesinin baş verməsi üçün eşitmə sistemindəki qüsursuz uyğunluq

Qulağımızdakı eşitmə sistemində diqqət edilməli iki əsas cəhət var. Eşitmə prosesinin baş verməsi üçün əvvəlcə havadakı səs dalğaları toplanmalı, daha sonra bu səs dalğaları sinir impulslarına çevrilərək beyinə ötürülməlidir.

Ona görə, havadakı səs dalğalarını toplayan qulaq seyvanı ilə daxili qulağa gələn titrəyişlərin beyinə ötürülməsini təmin edən "ilbiz" arasındakı uyğunluq eşitmə prosesində mühüm rol oynayır. Ən əsası odur ki, eşitmə sistemi üzərində aparılan tədqiqatlar həm qulaq seyvanının, həm də ilbizin qızıl nisbətlə qurulmuş xüsusi formalar olduğunu göstərmişdir.

## Qulaq seyvanı havadakı səs dalğalarını necə toplayır?

Qulaq seyvanının xarici çəpərini əhatə edən xarici qulaq keçəcəyinin qövsvari forması Fibonaççi sayı əsasında qurulmuş bərabərbucaqlı spiralvari qövs əmələ gətirir. Hamımız bilirik ki, qulağın bu forması bütün insanlarda eynidir. Bəs qulaq seyvanındakı bu xüsusi həndəsi quruluşun qulağın havadakı səs dalğalarını toplama funksiyası ilə necə əlaqəsi var?

Qulaq seyvanındakı bərabərbucaqlı spiralvari formanın qulağın səs dalğalarını toplaması qulağın ən mükəmməl həndəsi formada yaradılması sayəsində baş verir. Buradakı mükəmməl quruluşu anlamaq üçün qulaq çəpərimizin formasını bir az dəyişdirmək kifayətdir. Əgər qulaqlarımızı əllərimizlə qabağa doğru itələsək, gələn səsin tezliyi eyni olsa da, gücü artacaq. Qulağımızı əlimizlə bir az arxaya doğru itələsək, eşitdiyimiz səsin gücü azalacaq və eşitməkdə çətinlik çəkəcəyik.

Ətrafdan gələn səsin tezliyində heç bir dəyişiklik olmasa da, qulağımızı hərəkət etdirdikdə eşitmənin artması və ya azalması qulaq seyvanındakı bərabərbucaqlı spiralvari qövsün formasının pozulmasından qaynaqlanır. Qulağımızın forması ilə eşitmə qabiliyyəti arasında birbaşa əlaqə olduğuna görə, qulaq





seyvanına həndəsi forma verən Fibonaççi sayına əsasən təşkil olunmuş spiralvari qövsün eşitmədəki müvazinət ilə birbaşa əlaqəsi olduğunu deyə bilərik.

### Eşitmə anında nələr baş verir?

Eşitmə prosesi əvvəlcə havadakı səs dalğalarının qulaq seyvanı tərəfindən toplanması ilə başlayır. Toplanan səs titrəyişləri qulaq pərdəsi ilə toqquşur, qulaq pərdəsi orta qulaqdakı xırda sümükləri titrədir və bu sayədə səs titrəyişləri mexaniki titrəyişə çevrilir.

Bu mexaniki titrəyişlər də daxili qulaqda yerləşən və "ilbiz" adlanan formanın içindəki mayeni titrədir. Nəticədə, bu maye titrəyişləri sinir impulslarına çevirərək beyinə ötürür və bunlar beyində səs kimi şərh olunur.

"İlbiz" adlı orqanın eşitmə möcüzəsindəki rolu

Eşitmə prosesində rol oynayan digər orqan isə "ilbiz" adlandırılan kokleadır. Kokleanın içində çox kompleks eşitmə mexanizmi yerləşir. İnsanın daxili qulağında səs titrəyişlərini sinir impulslarına çevirərək beyinə ötürən bu sümük orqanın 73 dərəcə 43 dəqiqəlik sabit bucaqlı spirala uyğun, içi maye ilə dolu olan xüsusi kanalları var. Kokleanın bu özünəməxsus anatomik formasının mənbəyi qızıl nisbət olduğuna görə, kokleanın spiralvari quruluşu ilə funksiyası arasında çox yaxın əlaqə var. Qızıl nisbətin funksiya ilə anatomik forma arasında daima tarazlıq əmələ gətirməsi və tarazlıq olan hər yerdə qızıl nisbətə rast gəlinməsi bu ölçünün uca Rəbbimiz tərəfindən yaradılmış möcüzəvi say olduğunu bir daha sübut edir. Bir Quran ayəsində bildirildiyi kimi, **"... Bu, hər şeyi bacarıqla edən Allahın işidir..."** (Nəml surəsi, 88)

### Səsin mənbəyini hər vəziyyətdə necə təyin edirik?

Bu sual XX əsrin ikinci yarısındakı elmi fəaliyyətlərlə cavabını tapmışdır. D. Bato 1967-ci ildə qulaq seyvanının səs mənbəyinin yerini müəyyən etmədəki rolunu göstərdi. Bu rol belə açıqlanmışdır:

"Qulaq, seyvanı üzərindəki antenaya bənzər reseptor sistemi ilə ona çatan səsin istiqamətini təyin edərək xarici qulaqdan qulaq pərdəsinə yollayır". (Batteau DW 1967 The role of the pinna in human localization.Proc R Soc Lond B Biol Sci. 1967 Aug 15;168(11):158-80)

"Qulaq seyvanında anadangəlmə və ya sonradan forması dəyişən insanlar üzərində bu tezisi təsdiqləyən fəaliyyətlər aparılmış və bu insanların səs mənbəyinin yerini müəyyən etməkdə çətinlik çəkdiyi aşkar edilmişdir".
(Snow, Jr. James B, "The eEar" In Ballenger JJ, Snow JB Otorhinolaryn-gology Head and Neck Surgery, 15 th edition, syf 879 Williams Wilkins Press 1996)

# HƏŞƏRATLARDAKI ÜSTÜN UÇMA SİSTEMLƏRİ



**Bir həşərat saniyədə 1000 dəfə qanad çırpmağı necə bacarır?**

**Öz boyundan yüz dəfə hündür yerə necə tullana bilir?**

**Aşağı-yuxarı hərəkət edən qanadlarla irəliyə doğru necə uça bilir?**

Quranda Rəbbimizin sonsuz elmini göstərən canlılardan biri olan milçəkdən bəhs edilir. Allah "Həcc" surəsinin 73-cü ayəsində belə buyurur:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. İstəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**



Canlılardakı bir çox möcüzəvi xüsusiyyət dövrümüzdə Allah'ın bəşəriyyətə bəxş etdiyi bilik və texnologiya ilə tədqiq olunmasına baxmayaraq, hələ də tam aşkar edilməmişdir. Allah'ın yaratdığı hər şeydə olduğu kimi, milçəyin bədənində də imanlı insanın Allah'a olan dərin sevgisini və bağlılığını artıran üstün elm vardır. Elm adamlarının milçəklərin və kiçik həşəratların uçma sistemləri üzərində apardığı araşdırmaların bir qismi aşağıda verilmişdir. Bu araşdırmalardan belə nəticə çıxır ki, Allah'dan başqa heç bir varlıq və ya güc bir milçək belə yarada bilməz.

İynəcə, çəyirtkə, kəpənək və milçək kimi bir çox həşəratın uçmasına dəstək olan əzələlər hər hərəkəti nəzarətdə saxlayan sinirlərin göndərdiyi impulslar nəticəsində büzülür. Belə ki, bir çəyirtkədə hər sinirin göndərdiyi impuls uçmanı həyata keçirən





əzələnin büzülməsinə səbəb olur. "Qaldırıcı" və "endirici" adlanan iki cüt əks əzələ qrupu bir-birlərinə əks istiqamətdə hərəkət edərək qanadların yuxarı və aşağı hərəkət etməsini təmin edir. Çəyirtkələr qanadlarını saniyədə 12-15 dəfə çırpırlar, kiçik həşəratlar isə uçmaq üçün daha tez-tez qanad çırpmalıdırlar. Məsələn, bal arıları, eşşək arıları və milçəklər saniyədə 200-400 dəfə, ağcaqanadlar və boyu 1 mm olan parazitlər 1000 dəfə qanad çırpırlar. İnsan gözünün sezə bilmədiyi qədər sürətlə hərəkət edən qanadlar bu cür fəaliyyət göstərmək üçün xüsusi quruluşda yaradılıblar.

Bir sinir saniyədə ən çox 200 impuls göndərə bilir. Elə isə kiçik bir həşərat saniyədə 1000 dəfə necə qanad çırpa bilir? Aparılan araşdırmalarda bu həşəratlarda sinirlərdən gələn siqnallar ilə qanad çırpma sayı arasında əlaqə olmadığı müəyyən edilmişdir. Saniyədə 200 dəfə qanad çırpan qara milçəklər çəyirtkələrdən daha fərqli sinir və əzələ quruluşuna malikdir. Hər 100 qanad çırpması üçün sinirdən sadəcə 1 impuls gəlir. Bundan əlavə, "lifli əzələlər" adlandırılan bu əzələlər çəyirtkənin əzələlərindən fərqli işləyir. Sinir impulsları əzələlərin ancaq uçmağa hazırlanmasını tənzimləyir, əzələlər müəyyən həddə qədər gərildikdə isə öz-özlərini büzürlər. Hər həşəratın bədənində fərqli yaradılan bu xüsusi sistemlərdə əsla nizamsızlıq yoxdur. Sinirlər heç vaxt yanlış siqnal göndərmir və həşəratın əzələləri də aldığı bu impulsları düzgün dəyərləndirir.

Arılar kimi bəzi həşərat növlərində uçmanı təmin edən əzələlər qanad dibinə bağlı deyil. Qanadlar sinəyə bir növ rəzə funksiyası daşıyan buğumlarla bağlanır və qanadları yuxarı hərəkət etdirən əzələlər də sinənin alt və üst səthinə bağlıdır. Bu əzələlər büzüldükdə sinənin səthi düzləşərək qanad dibini aşağıya dartır, digər tərəfdən sinənin yan səthi də dəstək funksiyasını yerinə yetirərək qanadların yuxarıya qalxmasına kömək edir. Aşağıya hərəkəti təmin edən əzələlər birbaşa qanadlara bağlı deyil, sinə boyu uzununa işləyir. Bu əzələlər büzüldükdə sinə əks istiqamətdə hərəkət edir, beləliklə, qanadlar da aşağıya dartılır.

Qanad buğumu mükəmməl elastikliyə malik olan "resilin" adlı xüsusi zülaldan ibarətdir. Həm təbii, həm də süni kauçukdan daha üstün xüsusiyyətləri olan bu maddəni kimya mühəndisləri laboratoriyalarda hazırlamağa çalışırlar. Resilin gərilmə və bükülmə ilə bütün enerjini depolayan, bununla da ona təsir edən qüvvəni götürdükdə bu enerjini tamamilə geri qaytaran maddədir. Bu cəhətdən resilin 96% səmərəliliklə enerji təmin edir. Qanad yuxarı qaldırıldıqda sərf edilən enerjinin təxminən 85%-i depolanır, uçuşdan sonra qaldırma və itələmə gücünü təmin edən aşağı qanad hərəkətində isə bu enerji yenidən istifadə edilir. Sinə divarları və əzələlər də bu enerjinin toplanmasına imkan verən quruluşda yaradılıblar. Ancaq əsl enerji resilindən ibarət buğumlarda depolanır. Bir həşəratın öz səyi ilə uçmaq üçün bədənimində bu cür mexanizm əmələ gətirməsi



qeyri-mümkündür. Bu xüsusi maddə Allah'ın sonsuz ağlı və qüdrətilə həşəratların bədənində yaradılmışdır.

Uçmaq üçün qanadların təkcə yuxarı və aşağı hərəkəti kifayət deyil. Qanadların qaldırma və itələmə gücünü təmin etmək üçün hər qanad çırpıldıqda onların hərəkət bucağı da dəyişdirilməlidir. Həşəratların növündən asılı olaraq qanadların müəyyən çevrilmə elastikliyi var. Bu elastikliyi uçmaq üçün lazım olan enerjini verən "birbaşa uçma əzələləri" təmin edir. Belə ki, həşəratlar havada daha çox yüksəlmək istədikdə qanad buğumlarının arasında yerləşən bu əzələlər daha da büzülərək qanadla bədənin kəsişmə bucağını böyüdür. Yüksək sürətli fotoqrafçılıq texnikasından istifadə edilərək aparılan tədqiqatlarda qanadların uçma əsnasında elliptik çevrə çəkdiyi və qanadla bədənin kəsişmə bucağının hər qanad çırpıldıqda sistematik şəkildə dəyişdiyi müşahidə edilmişdir. Bu dəyişikliyə əzələlərin dəyişkən hərəkətləri və qanadların gövdəyə bağlanması səbəb olur.

Bütün bunlardan əlavə, çox kiçik gövdəli həşəratların uçma zamanı qarşılaşdığı ən böyük problem havanın axıcılığı nəticəsində əmələ gələn müqavimətin bu həşəratlara çox təsir etməsidir. Habelə qanadın ətrafındakı məhdudlaşdırıcı təbəqə havanın qanadlara yapışmasına və qanadın fəaliyyətinin zəifləməsinə səbəb olur. Bu səbəbdən Forcipomyia kimi qanadının genişliyi 1 mm-dən çox olmayan milçəklər havanın müqavimətinə davam gətirmək üçün qanadlarını saniyədə 1000 dəfə çırpmalıdırlar. Elm adamları bu sürətin həşəratın havaya qalxması üçün kafi olmadığını və həşəratların uçmaq üçün başqa bir sistemdən faydalandığını düşünürlər.

Belə ki, bir parazit növü olan Enersia kimi kiçik həşəratlar "çırpma və silkələmə" adlandırılan metoddan istifadə edir. Bu zaman qanadlar ən yuxarı həddə çatdıqda bir-birinə dəyir və sonra açılır. Açılarkən qanadların bərk damarlı ön hava axını da əvvəlcə qanadların ətrafında hava girdabı əmələ gətirir, qanadlar çırpılarkən qaldırma qüvvəsinə kömək edir.

Çəyirtkə də daxil olmaqla, bir çox həşərat uçuş zamanı istiqaməti və gedəcəkləri yeri müəyyən etmək üçün üfüqi xətt kimi vizual parametrlərdən istifadə edir. Milçəklər istiqaməti müəyyən etmək üçün mükəmməl quruluşda yaradılıblar. Bu həşəratların sadəcə bir cüt qanadı var. Arxa tərəfdə isə "cilov" adlanan toppuz formasında qanad yerləşir. İtələmə qüvvəsi əmələ gətirməsə də, ön qanadlarla birlikdə titrəşirlər. Uçuş istiqaməti dəyişdikdə isə bu çıxıntılar həşəratın uçuş istiqamətindən ayrılmasının qarşısını alır.

Burada verilən bütün məlumatlar sadəcə üç-dörd həşərat növünün uçma metodu üzərində aparılan tədqiqatlar nəticəsində əldə edilmiş faktlardır. Dünyada 10 milyona yaxın həşərat növü olduğunu düşündükdə qalan milyonlarla həşərat növünün milyardlarla möcüzəvi xüsusiyyəti Allah'ın sonsuz qüdrətinə heyranlığımızın artmasına səbəb olur.



# QURAN ƏXLAQI

**Hər hansı məsələdə ümidsizliyə qapılmaq nə üçün doğru davranış deyil?**

Hər varlığı, hər hadisəni Allahın yaratdığını bilən, Onu tanıyıb gücünü təqdir edən insan hər hansı məsələdə ümidsizliyə qapılmaz. Çünki Allah hər çətinliyi aradan qaldıran, əfv edən, mərhəmət edən, sonsuz qüdrət və bilik sahibidir. Gündəlik həyatda ortaya çıxan hər cür çətinlik, ani surətdə yaranan problemlər, xəstəliklər, edilən səhvlər, qısaca desək, insanların ümidsizliyə düşmə səbəbi kimi gördükləri hər şey əslində tamamilə Allahın nəzarəti altında baş verir. Allah hər şeydən xəbərdar olan, hər şeyi biləndir. Sonsuz ağıl tərəfindən qədərinin təyin edildiyini bilmək bir insan üçün ən böyük rahatlıqdır. Bunu dərk edən insan əsla ümidsizliyə düşməz.

Bundan əlavə, mömin dünyada etdiyi hər səhvi düzəltməyin mümkün olduğunu bilir, ona görə də ümidsizliyə qapılmaz. Belə ki, Quranda insanlara Allahın rəhmətindən ümid kəsməmək əmr edilmişdir:

**... Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər! (Yusuf surəsi, 87)**

**De: "Ey Mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir! (Zumər surəsi, 53)**

**Möminlər səhv edərlərmi?**

Quranda bildirildiyi kimi, möminlər səhv edə bilər. Ancaq Allahdan qorxub çəkindikləri və Ona qarşı səmimi olduqları üçün səhvlərini israrla təkrarlamaz, dərhal düzəlmtəyə çalışarlar. Allahdan bağışlanma diləyər və özlərini islah edərək bir daha bu xətanı etməməyə diqqət edərlər. Dünyanın tərbiyə yeri olduğunu bilər və etdikləri səhvələrdən nəticə çıxararaq ibrət alar, özlərini kamilləşdirirlər. Allah möminlərin bu gözəl əxlaqını bir çox ayədə tərifləmiş, onları mütləq bağışlayacağını müjdələmişdir:

**O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini bildikdə bir daha ona qayıtmazlar. (Ali-İmran surəsi, 135)**

# MAHNI SÖZLƏRİNDƏ GİZLƏNƏN MƏNFİ MESAJLAR

*Çox vaxt bəlkə də heç əhəmiyyət vermədən dinlənilən mahnı sözləri insanların ümumi psixologiyası və bir-birlərinə münasibətlərinə necə təsir edir?*

*Şeytanın ən çox istifadə etdiyi aldatma metodlarından biri olan romantizmin doğru göstərildiyi bəzi mahnı sözləri insanın həm özü, həm də cəmiyyət üçün hansı zərərlərə yol açır?*

*Dini inanclara zidd, üsyankar, depressiv və aqressiv ifadələrin işləndiyi mahnılar insanın şüuraltına necə mənfi təsir edir?*

Musiqi dinləmək insanın ruhuna böyük zövq verən və uca Allah'ın lütfü olan gözəl nemətlərdəndir. Bir çox insan gün ərzində müxtəlif işlərlə məşğul olarkən musiqi dinləyir. Ancaq mahnıların çox vaxt fərqinə varmadığımız, üzərində dayanmadığımız və lazımi dərəcədə əhəmiyyət vermədiyimiz bir cəhəti var: mahnı sözlərində gizlənən mənfi mesajlar.

Yanlış məntiqə malik bəzi mahnı sözləri çox kiçik yaşlardan etibarən şüuraltına nüfuz edərək insanın həyata və hadisələrə baxışına mənfi təsir edir. Bu cəhətini düşünmədən dinlədikdə məsum görünən, əslində, şeytanın hiyləgər oyununun gizləndiyi mahnı sözlərinin insanlar üzərində mənfi təsirinə dair çəkəcəyimiz misallardan bəziləri bunlardır:

## Romantizm təlqini

Sevgi uca Allah'ın insana bəxş etdiyi gözəl duyğudur. Ancaq bu sevginin kimə və hansı düşüncələrlə bəsləndiyi, yəni şirkə əsaslanıb-əsaslanmadığı çox vacibdir. Bir insanı Allah'dan müstəqil hərəkət edən varlıq kimi görmək bu insanı ilahlaşdırmaq, yəni Allah'a şirk qoşmaq (Allah'ı tənzih edirik) deməkdir. Bu insanın həm fiziki, həm də mənəvi gözəlliklərini ona verən yeganə güc var, o da uca Rəbbimizdir. Bu insanın etdiyi səhv onun qədərinin bir hissəsidir və bu hadisədə hər kəs üçün çox böyük xeyir və hikmət var. Ona görə, bir insanı sevdikdə bütün bu həqiqətləri dərk edərək sevmək çox vacibdir. Təməli Allah'a təslimiyyət üzərində qurulmuş sevgidə insan başqasına qarşı sevgi adı altında yanlış hisslər bəsləməz, romantizm kimi təlqinlərlə şeytani əhvala girməz.

Allah sevgisinə əsaslanmayan sevgidə isə insanın sevgi dediyi hiss şeytani romantizmə əsaslanır. Bəhs etdiyimiz kimi, bəzi mahnı sözlərində də insanlara bu cür yanlış sevgi anlayışı təlqin edilir. Allah'a və



qədərə təvəkkülsüzlük üzərində qurulan bu sevgi anlayışının gətirdiyi romantizm isə dərin kədərə, ümidsizliyə, əlacsızlığa, özünə qapanmağa, ağlamağa təşviq edir və insanları qaranlıq ruhi hala yönəldir.

Nəticədə də bəzi mahnı sözləri insanları sevdikləri insandan ayrıldıqda və ya o öldükdə onsuz həyatın mənasız, yaşamağın gərəksiz olduğu kimi batil düşüncələrə sürükləyərək onlara təvəkkülsüz davranmağa vadar edir, depressiyaya salır və hətta intihara belə təşviq edir. Sevdiyi insanı hər şeydən və hər kəsdən qısqandığından, qısqanclıqdan hər şey edə biləcəyindən bəhs edən mahnı sözləri və ya ayrılıq baş verdikdə qəzəbli intiqam sözləri Allah'a inanmayan, Quran əxlaqına uyğun yaşamayan bir çox cahil insana dərindən təsir edir. Başına gələn hadisələri imani ağılla dəyərləndirməyən bəzi insanlar qısqanclıq, qəzəb, kin və intiqam almağa təşviq edən bu cür təlqinlər nəticəsində cinayətə qədər gedib çıxan psixologiyaya malik olurlar. Belə ki, KİV-lərdə sevdikləri tərəfindən tərk edildikdə intihar edən, qısqanclıq nəticəsində sevdiyi insanı gözünü qırpmadan yaralayan və hətta öldürən insanlar haqqında xəbərlərə tez-tez rast gəlinir. İnsan bütün qəlbi ilə yeganə güc olan uca Allah'ı sevməli, Ona yaxınlaşmalı, bağlanmalıdır. İnsana qarşı sevgi də mənbəyini Allah sevgisindən alırsa, gerçək sevgidir. Mahnı sözləri ilə çox məsum duyğu kimi göstərilən, əslində, şirkə və insanları ilahlaşdırmağa (Allah'ı tənzih edirik) əsaslanan cahil sevgi anlayışının uca Allah'ın razı qalmadığı hiss olduğu Quranda belə xəbər verilir:

**İnsanların içərisində Allah'dan qeyrilərini (Allah'a) şərik qoşub, onları Allah'ı sevən kimi sevənlər də vardır. Halbuki, iman gətirənlərin Allah'a məhəbbəti daha qüvvətlidir. Əgər zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün (qüvvət və) qüdrətin Allah'a məxsus olduğunu və Allahın əzabının şiddətli olduğunu bilərdilər. (Bəqərə surəsi, 165)**

## Müqəddəs dəyərlərə zidd mahnı sözlərinin mənfi təsiri

**"De: "Allah'ın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O, bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allah'a təvəkkül etməlidirlər!" (Tövbə surəsi, 51)** ayəsində xəbər verildiyi kimi, uca Allah bütün canlı və cansız varlıqları qədərləri ilə birlikdə yaratmışdır. Ancaq bu qəti həqiqətə bəzi mahnı sözlərində etinasız yanaşılır. Bəzən bu cür mahnı sözlərinin bir bəndində ölüm və ya hər hansı səbəbdən ayrılığın qədərdə olduğu üçün baş verdiyi vurğulanır. Bu, əlbəttə, doğru, gözəl təlqindir. Ancaq ardınca gələn sözlərlə qədəri dəyərləndirmə üslubunun olduqca yanlış olduğu görünür. Qədərə inanan insan qədərin mükəmməlliyinə, hər kəs üçün həmin hadisədə xeyir və hikmət olduğuna inandığını göstərər. Ancaq bəhs etdiyimiz mahnı sözlərində qədərdən narazılıq, bədbəxtlik və çarəsizlik (Allah'ı tənzih edirik) ifadə edilir.

Halbuki, uca Allah qədəri ən gözəl şəkildə yaradır. Zahirdə mənfi görünən hadisələr



dünya həyatının tələbi olaraq imtahanın bir sirridir. Bu imani qavrayışla insan hadisələrə xeyir gözü ilə baxır, təvəkkül və təslimiyyətin qarşılığını axirətdə mütləq alacağını bilir. Qədərə və Allah'a təslimiyyətə əsaslanan səmimi iman isə bu mahnı sözlərində təlqin edilən mənfi düşüncə tərzinin tam əksinə, insana coşğunluq və sevinc gətirir.

Bəzi mahnı sözlərində isə həyatını və ya qədərini bəyənməmə, üsyan etmə halı hakimdir (uca Allah'ı tənzih edirik). Etdikləri hər hərəkətin və ya başlarına gələn hər hadisənin öz nəzarətlərində olduğunu zənn edən bu insanların yanlış qədər inancının kökündə uca Allah'ın qədrini, qüvvətini tam qavramamaq durur. Halbuki, hər insanın hələ bircə hüceyrə ikən ilk dəfə oxuma-yazma öyrəndiyi vaxta, universitet imtahanında verdiyi cavablardan həyatı boyu hansı şirkətdə nə iş görəcəyinə, hansı kağızları neçə dəfə imzalayacağına, harada və necə öləcəyinə qədər hər anı uca Allah'ın qatında bəllidir. Bu hadisələrin hamısı Rəbbimizin hafizəsində saxlanılır. Elə isə hər anı uca Allah'ın qatında yaşanmış, görülmüş və hələ də Onun hafizəsində hazır duran həyat üçün narahat olmaq, qorxu keçirmək, kədərlənmək uca Allah'ın seçib bəyəndiyi həyatın mükəmməlliyini təqdir etməmək deməkdir. Rəbbimiz bu həqiqəti Quranda belə bildirir:

**Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda yazılmamış olsun. Bu, Allah üçün çox asandır! Bu, sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə də veriləna sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç bir kəsi sevməz! (Hədid surəsi, 22-23)**

## Ölümün bir son olması təlqini ilə formalaşan əhvali-ruhiyyə

Ölümün bir son olduğu və ölümdən sonra həyat yoxmuş kimi təlqin verərək insanları yanlış məlumatlandıran və axirətlərini heç düşünmədən yaşamağa təşviq edən mahnı sözləri də insanların yanlış yönləndirir.

Ölən insanın yox olduğunu və bir daha ona əsla qovuşmağın mümkün olmadığını təlqin edən bu sözlər mahnını dinləyən insanlarda ölüm və sevdiklərini itirmə qorxusu əmələ gətirir. Halbuki, uca Rəbbimiz Quranda imanlı və imansız insanların ölüm anında keçirdiyi müxtəlif hisslər, axirət həyatının əbədiliyi, cənnət və cəhənnəmdəki həyat haqqında hərtərəfli məlumat verir. Ölüm iman gətirən insan üçün mömin olan sevdiklərinə əbədiyyən qovuşacağı, cənnətdə əbədi rahatlıq və xoşbəxtlik içində yaşayacağı keçiddir. Ona görə, uca Allah'ın hər varlıq üçün təqdir etdiyi ölümə qarşı insanları üsyankar düşüncə tərzinə təşviq etmək böyük imani məsuliyyətdir. Bu təlqinlərin təsirində qalan insanlar ölümün hər şey və hər kəs üçün bir son olduğuna inanaraq hərəkət edirlər. Axirətin varlığını unutduqlarına görə, bədbin, qaranlıq, ümidsiz, kədərli, depressiv hala düşürlər.

Ölüm haqqında aldıqları bu təlqinlər nəticəsində axirətə inanmır və ya inansalar da, bu təlqinlərin təsirilə ölümdən sonrasını heç düşünmürlər.

Axirətdəki sonsuz həyatları üçün hazırlıq görməyi lazım bilmirlər. Dünyada etdikləri pis əməllərə görə axirətdə cavab verəcəklərini düşünmədiklərinə görə, Allah'dan qorxmadan, vicdanən narahat olmadan pis işlər görürlər.

Bəlkə də sadəcə adi mahnı sözü fikrilə insanlara ölüm və həyat haqqında verilən bu yanlış təlqinlər bir insanın bu yanlış düşüncələrlə həm özünə, həm ətrafına, həm də cəmiyyətə çox zərər vermәsinə səbəb olur.



## Davranışlara və düşüncələrə mənfi təsir edən mahnı sözləri

Mahnılarda tez-tez vurğulanan mövzulardan biri də bədbinlik və ümidsizlikdir. Halbuki, bədbinlik, ümidsizlik, kədər, depressiya kimi hisslər şeytanın romantizmə sürüklədiyi insanlara cəlbedici göstərdiyi cəhənnəmə xas vəsflərdir. Kədərə təşviq edən bu cür mənfi sözlər bəzi insanları özünə qapalı, passiv, depressiyaya və intihara meyilli psixologiyaya yönəldir. Bəzi insanlar isə bu mahnıların təsirilə büründükləri kədərli əhvalı öz ifadələrilə: "Kefim yoxdu", - deyərək təsvir edirlər. Beləliklə, Allah'ın Quranda haram buyurduğu kədərlənmək (Hicr surəsi, 88), ümidsizliyə qapılmaq (Hicr surəsi, 55) kimi mənfi əxlaqi xüsusiyyətlərin hamısını mahnı sözlərinin təsirilə mənimsəyirlər.

Mahnıların bir qismində isə yaşadığı həyatı bəyənməyən və bu həyatın dəyişməsi üçün üsyankar üslubla uca Allah'a ünvanlanan bəzi sözlər də olur (Allah'ı tənzih edirik). Bu cür mahnı sözlərinin təsirində qalan insanlarda bəzən cəmiyyətə və insanlara qarşı da üsyankarlıq və təcavüzkarlıq diqqət çəkir. Özlərini ülgüclə yaralayan, konsert meydanlarında dava-dalaş salan, ətrafına narahatçılıq verən bu cür insanların bütün üsyankar və təcavüzkar davranışları yaşadıqları həyatı onlara bəxş edən Allah'ı unutmalarından və Rəbbimizin rəhmətini təqdir edə bilməməkdən qaynaqlanır. Halbuki, uca Allah Quranda bu cür davranan insanlara belə xəbərdarlıq edir:

**Yox, yox! Əgər son qoymasa, and olsun ki, Biz onu kəkilindən yapışıb sürükləyəcəyik. Özü də yalançı, günahkar kəkilindən! (Ələq surəsi, 15-16)**



## Möminlər ancaq gözəl sözdən xoşlanırlar

Daha əvvəl bəlkə də bir çox insanın burada bəhs etdiyimiz tərzdə dəyərləndirmədiyi mahnı sözləri şeytanın insanlara ən müdafiəsiz vaxtlarda hiyləgərcəsinə yanaşma metodlarından biridir. Bu mahnı sözləri ifadə etdikləri yanlış məntiqlə insanlara daxilən mənfi təsir edərək onları çarəsizliyə, romantizmə, üsyana və inkara sürükləyir. Belə ki, mahnıların böyük əksəriyyətindəki şirkə əsaslanan, üsyankar, bədbin üslub insanları gözəl söz söyləməkdən və gözəl sözə tabe olmaqdan uzaqlaşdıran şeytana aiddir. Halbuki, uca Allah Quranın **"Bəndələrimə de: "Ən gözəl sözü söyləsinlər... (İsra surəsi, 53)"** ayəsi ilə şeytanın insanlara oynadığı bu oyunu pozur.

Ona görə, dinlənilən mahnıların sözlərində bu məqalədə bəhs etdiyimiz kimi, Quran əxlaqına uyğun olmayan mənfi təlqin və mesajlar varsa, o mahnı dərhal dəyişdirilməli, əvəzində, insanı gözəlliyə, rahatlığa və xoşbəxtliyə sövq edən mahnılar dinlənilməlidir.

Unutmaq olmaz ki, musiqi gözəl nemət olmaqla yanaşı, insanların tərbiyəsi və müsbət yöndə istiqamətləndirilməsi üçün mühüm vasitədir. Mahnı sözləri insanları sevindirmək, əyləndirmək, müsbət düşüncə və davranışlara təşviq etmək, məlumat vermək məqsədilə hazırlandıqda mahnılar rahatlığa, əmin-amanlığa səbəb olan mühüm mənbəyə çevrilir.



Quranda gözəl sözün bir çox gözəlliyə səbəb olan mühüm imkan olduğu və mütləq gözəl nəticə verdiyi belə xəbər verilir:

**Məgər Allah'ın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt verər. Allah insanlar üçün belə misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar! Pis söz isə yerdən qopardılmış, kökü olmayan pis bir ağaca bənzəyir. (İbrahim surəsi, 24-26)**

## Mahnı sözlərində yanlış təlqinlərdən çəkinmək nə üçün vacibdir?

Əlbəttə, mahnı sözləri insanın həyatına təsir edən yeganə səbəb deyil. İnsan həyatı boyu ağlını, şəxsiyyətini, düşüncələrini və davranışlarını formalaşdıran bir çox müsbət və ya mənfi təlqinlə qarşılaşır. Mahnı sözləri bunlardan sadəcə biridir. Ağıllı, imanlı, güclü, iradəli insan ona nə qədər doğru göstərilsə də, mənfi təlqinlərdən əsla təsirlənməz. Allah'dan qorxaraq, vicdanının səsini dinləyərək və Quran əxlaqını özünə rəhbər tutaraq doğru bildiyinə inanıb doğru yolda irəliləyər.

Ancaq cəmiyyətdə kifayət qədər məlumatı olmayan cahil insanlar da var. İmani həqiqətlərdən, Quran əxlaqından xəbərsiz olan və ya bu mövzuları ətrafından ağızdan-ağıza keçən şəkildə yanlış öyrənən insanların mahnı sözlərindəki səhv təlqinlərdən asanlıqla təsirlənmələri normaldır. Bu təlqinlər bir çox insanın həyatını kökündən dəyişdirən çoxlu zərərlərə yol açır ki, bu da çox mühüm vicdani məsuliyyətdir. Buna görə, mahnı sözlərini yazarkən, bu sözləri söyləyərkən və insanların dinləməsinə səbəb olarkən bundan məsul olduğunu unutmamaq lazımdır.

İman gətirən şüurlu, vicdanlı insan mahnıların Quran əxlaqına uyğun olmayan sözlərini dinləməməli, başqalarının da dinləməməsinə vasitəçi olmalıdır.

Yanlış sevgi, qədərə və axirət anlayışının formalaşmasına səbəb olan və Quran əxlaqına zidd olan romantizmi təlqin edən mahnıların sözlərini dinləmək və dinlənilməsinə səbəb olmaq bir çox insanın kiçik yaşlardan etibarən mənfi əhval-ruhiyyəyə bürünməsinə səbəb olur. Şeytan insanları uca Allah'ın yolundan azdırmaq üçün hər yolu sınayır və bəzi mahnı sözlərində olduğu kimi, insanlara heç fərqinə varmadıqları yöndən hiyləgərcə yanaşır. Uca Rəbbimiz Quranda şeytanın bu gizli oyununu belə xəbər verir:

**Dedi: "Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından soxulacağam və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!" (Əraf surəsi, 16-17)**



çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm (soxulacağam) və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!" (Allah) buyurdu: "Oradan rüsvay olmuş və kənar edilmiş (qovulmuş) halda çıx. Onlardan hər kim sənə uysa, Əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam!
(Əraf Surəsi,16-18)

# ŞEYTANIN xüsusiyyətləri

### ŞEYTANIN VƏZİFƏSİ İNSANLARI AZDIRMAQDIR

*O zaman Şeytan onlara öz əməllərini gözəl göstərib demişdi: "Bu gün insanlar içərisində sizə qalib gələ biləcək bir kimsə yoxdur. Mən də sizin dadınıza çatanam!" Lakin iki dəstə üz-üzə gəldiyi zaman dönüb qaçaraq: "Mənim sizinlə heç bir əlaqəm yoxdur. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Allah şiddətli əzab verəndir!" – demişdi. (Ənfal Surəsi,48)*

### İNSANLARI ALDADIR

*Onlardan kimi bacarırsansa, səsinlə yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına və övladlarına ortaq ol, onlara cürbəcür vədlər ver. Şeytan (ona uyanlara) yalnız yalan vəd verər! (İsra Surəsi,64)*
*Şeytana (Şeytanın insanı aldatmasına) bənzəyir. O, insana: "Kafir ol !" – deyər. kafir olan kimi: "Mənim səninlə heç bir əlaqəm yoxdur. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!" – deyər. (Həşr Surəsi,16)*

### HİYLƏSİ İNANANLAR ÜÇÜN ÇOX ZƏİFDİR

*İş bitdikdə Şeytan belə deyəcək: "Allah sizə doğru vəd vermişdi. Mən də sizə vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm yox idi. Lakin mən sizi çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə sizin məni şərik qoşmağınızı da inkar etmişdim. Həqiqətən, zalımları şiddətli bir əzab gözləyir! (İbrahim Surəsi,22)*

### SADƏCƏ ONU DOST TUTANLARI ALDADA BİLİR

*Sizi yalnız o Şeytan öz dostlarından qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun! (Ali-İmran Surəsi,175)*

### İNKAR EDƏNLƏRƏ NAZİL OLUR

*Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya, günahkara nazil olarlar. Eşitdikləri sözləri onlara təlqin edərlər. (Yaxud kahinlər şeytanların uydurmalarına qulaq asarlar). Onların əksəriyyəti yalançıdır! (Şüəra Surəsi,221-223)*

### MÖMİNLƏRDƏN BAŞQALARI ONA TABE OLURLAR

*İblisin onlar haqqındakı zənni düz çıxdı. Bir dəstə mömin istisna olmaqla, hamısı ona uydu.(Səbə Surəsi,20)*

# İBRƏTAMİZ HADİSƏLƏRİ

# UNUTMAMAQ

İnsanın ibrət aldığı, dərs götürdüyü hadisələrin ruhunda əmələ gətirdiyi təsiri unutmaması çox vacibdir.

İnsanların həyatlarında çox nadir baş verən bəzi hadisələr olur. Bu hadisələrin dərin təsiri insanlarda aylarla, hətta illərlə davam edir. Həmin hadisəyə aid görüntü və səslər gözlərinin önündən və qulaqlarından həyatlarının sonuna qədər getməz. Bəzən bir insanın ölümünə şahid olmaq, bəzən zəlzələ, sel, avtomobil qəzası, yanğın kimi hadisələr, bəzən insanın keçirdiyi böyük peşmançılıq, bəzən çox utandığı hadisə, bəzən də vacib tənqid insanın həyatının sonuna qədər unutmayacağı hadisələrdəndir.

İnsanlar, əsasən, başlarına gələn bu hadisələrdə bəzi çox vacib həqiqətləri qavrayır və həyatlarına istiqamət verəcək bəzi qərarlar verirlər. Başlarına gələndən nəticə çıxarır və qəlblərində bütün bunları əsla unutmamağa niyyət edirlər. Başlarına gələnlərdən aldıqları dərs və ibrətlərin həyatlarının sonuna qədər onlara fayda gətirən hadisələr olduğunu dərk edirlər.

Böyük hadisələrlə yanaşı, insanın başına gələn bəzi kiçik, adi hadisələr də insanların mühüm qərarlar verməsinə səbəb olur. Yediyi acı və ya ədviyyatlı yemək mədəsini ağrıtdıqda, insan: "Bunun mənə verdiyi zərəri unutmayım, bir daha bu cür yemək yeməyim", - deyə qərar verir. Çünki eyni çətinlikləri bir daha çəkmək istəmir. Ancaq necə olursa, bunu çox tez unudur. Tənbəllik etdiyinə görə, imtahana hazırlaşmayan insanın bir il artıq oxumağa məcbur olması, əslində, onun üçün dərs götürməli hadisədir. Bəlkə o günlərdə: "Tənbəlliyin zərərini əsla unutmayım", - deyə düşünər, bir daha belə səhv etməməyə niyyət edər. Söylədiyi acı sözdən sonra qarşısındakı ilə arasındakı münasibətin pozulduğunu görən insan çox peşman olur. "Bundan sonra mütləq düşünərək danışacağam, ağlıma gələn ilk sözü əsla düşünmədən deməyəcəyəm", - deyə səmimi qərar verir.

Bu nümunələrdə olduğu kimi, insanın həyatında bir çox məsələni daha dərindən qavradığı bəzi anlar olur. Öz-özünə "bir daha bunu heç etməyəcəyəm", "buna çox diqqət edəcəyəm", "bu sözdən və ya üslubdan heç istifadə etməyəcəyəm", "bu yanlış düşüncə tərzini tamamilə beynimdən siləcəyəm" kimi qərarlar verir. Ancaq insan çox unutqan varlıqdır. Gün ərzindəki kiçik hadisələrdə də, həyatında mühüm yer tutan böyük hadisələrdə də aldığı dərsləri və verdiyi qərarları çox tez unudur. Ömrünün sonuna qədər unutmamaq qərarı verdiyi bir məsələni bəzən bir-iki gün, bəzən bir-iki saat, bəzən də 5-10 dəqiqədə diqqətinin dağılması ilə dərhal unudur.

Bəzən bu vəziyyət insanın həyatında dəfələrlə təkrar olunur. Mühüm bir hadisə və ya etdiyi səhv hər hansı məsələdə ona ibrət olur və bu insan həmin məsələdə diqqətli olmaq üçün həyati əhəmiyyətli qərar verir. Ancaq gündəlik həyatına geri dönməsilə bunu dərhal unudur. Bir müddət sonra bənzər vəziyyətlə yenə qarşılaşır. "Əvvəl də bu vəziyyətlə qarşılaşmışdım və başıma gələnlərdən dərs götürərək bunu əsla unutmadan davranmaq qərarı vermişdim. Ancaq bu qərarımı unutduğuma görə, yenidən eyni səhvi etdim. Artıq bu dəfə qərarımı əsla

unutmayacağam", - deyə niyyət edir, yenə unudur, yenə əvvəlcə qərar verdiyini xatırlayır və bu unutmalar bənzər hadisələrlə daima davam edir.

Bu vəziyyət, əlbəttə, insanı çaşdırır. Şüurundan, hafizəsindən, ağlından istədiyi kimi istifadə edə bilməməsini, çox yaxşı bildiyi və qəti qərar verdiyi bir məsələdə daima eyni səhvləri təkrarlamasını anlaya bilmir.

Halbuki, burada insan çox mühüm möcüzəni görməlidir. Səmimi niyyət etmədikdə, dəqiq qərar vermədikdə insan çox təsirləndiyi həyati əhəmiyyətli məsələdə belə başına gələnləri dərhal unudur. Burada insan çatışmazlığı niyyətində axtarmalıdır.

Məsələn, bir insan böyük, dərin od çuxurunun başında, taxta çıxıntının üstündə dayanarsa, Allah'ın iznilə, şüuru çox açıq olar. Aşağıda od olduğunu unutmaz. Hər an üstündə dayandığı taxtadan yıxılma ehtimalının olması bu insanın diqqətini maksimum səviyyədə cəmləməsinə səbəb olar. Nə kiminsə ona düşdüyü vəziyyəti xatırlatmasına, nə də eyni hadisənin bir daha başına gəlməsinə ehtiyac var. Təhlükədən qorunmaq, odun içinə düşməmək üçün lazım olan hər şeyi dərk edəcək və həyata keçirəcək qədər şüuru açıq olar.

Deməli, əgər bir insan hər hansı bir məsələdə ona çox təsir edən hadisə ilə qarşılaşdığı və o an çox səmimi qərar verdiyi halda, bu qərarını tətbiq etmirsə, problem bu insanın başqa şeyləri o məsələdən daha mühüm görməsindədir. Diqqətinin başqa məsələlərə yayınması onun həmin məsələlərlə daha çox maraqlanmasındandır.

Ona görə də əgər insan bir səhvi daima təkrarlayırsa və o səhvinə görə dəyən maddi-mənəvi ziyandan kifayət qədər təsirlənmirsə, ya da başına gələn ibrətli hadisələrdən lazımi dərs götürməyib təkrarən eyni vəziyyətə düşürsə, bu təqdirdə, vicdanında xəstəlik olduğunu nəzərə almalı və vicdanını sağaltmağa çalışmalıdır.

Əlbəttə, unutmaq insanın acizliyidir. Bir insan Allah'ın izni olmadan bir şeyi unutmasına mane ola bilməz. Ancaq unutmamaq üçün var gücü ilə səy göstərə bilər. Unutmamaq üçün ağlına gələn maddi-mənəvi hər cür tədbiri görə bilər. "Mən aciz insanam, nə qədər tədbir görsəm də, mütləq unuduram", - deməməli, çalışdıqda, səy göstərdikdə istədiyi nəticəni Allah'ın onun üçün yaradacağını bilməlidir. Başına gələnlərin təsirini və verdiyi qərarların əhəmiyyətini unutmamalı və diqqətinin dağılmaması və zəiflik göstərməməsi üçün ciddi mübarizə aparmalıdır. Allah rizası üçün gözəl əxlaqlı davranmaqdan ötrü bütün diqqətini toplamalıdır.

Bütün bu cəhdlərdən sonra yenə də unudarsa, Allah insanı unutduğuna görə məsul etməyə bilər və ya unutmasına baxmayaraq, Allah onun yolunu aça bilər.

Quranda bu şəkildə səmimi cəhd göstərən möminlərin unutduqlarına və bilmədiklərinə görə onları cəzalandırmaması üçün Rəbbimizə belə dua etdikləri bildirilmişdir:

**Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər. Hər kəsin qazandığı (xeyir yalnız) onun özünə, qazandığı (şər də yalnız) öz əleyhinədir. "Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən. Kafirlərə qələbə çalmaqda bizə kömək et!" (Bəqərə surəsi, 286)**

# Balıqların üzməsini asanlaşdıran yaradılış xüsusiyyətləri



### Sərfəli üzmə texnikası:

Balıqlar sabit vəziyyətdə üzərkən birdən yüksək sürət əldə etmək üçün yüksək enerjiyə ehtiyacları olur. Ani surətdə sürətlənmək onlar üçün çox vacibdir, çünki yırtıcı heyvanlardan qaçmalıdırlar. Bəzi kiçik balıqlar sabit vəziyyətdə ikən saniyənin 120 -i qədər qısa müddətdə sürətlərini maksimum səviyyəyə çatdırırlar. Bu zaman hasil etdikləri itələmə qüvvəsi öz çəkilərindən 4 dəfə çox olur. Son model avtomobillərin belə 0 km-dən 100 km-dək sürəti 4-6 saniyə ərzində əldə etdiklərini nəzərə alsaq, balıqların nə qədər sərfəli üzdükləri daha yaxşı məlum olar.

### Hərəkət etməyi asanlaşdıran onurğa:

Balıqlar suyun içində çox vaxt axına qarşı hərəkət etməli olurlar. Suyun müqavimət qüvvəsinə güclü cərəyanların əmələ gətirdiyi qüvvə də əlavə edildiyi halda, balıqlar bu çətinliyin də öhdəsindən gələrək üzməyə davam edirlər. Balığa bu cür gücü onurğa və əzələlərinin xüsusi formaları qazandırır. Onurğa balığın bədəninin dik dayanması, habelə, üzgəclərin və əzələlərin ona birləşməsi üçün uyğun quruluşdadır. Əgər belə olmasaydı, balıqlar suda hərəkət edə bilməzdilər.

### Üzgəclərin köməyi və əzələ gücü:



Üzən bir balığın bədən quruluşu üçün skeletə, güc üçün əzələlərə, itələmə qüvvəsi və istiqamət vermə üçün üzgəclərə ehtiyacı var. Balığın skeletinə nisbətən daha sabit olan başı bədənə dəstək üzv funksiyasını yerinə yetirir. Onurğa balığın hərəkəti üçün işləyən qaldırıcı kran vəzifəsi daşıyır, əzələlər isə üzmək üçün güc hasil edir. Balığın 80%-ni təşkil edən əzələlər balığın hər istiqamətə hərəkət etməsi üçün müxtəlif formalarda düzülmüşdür. Beləliklə, əzələ qüvvəsi başdan quyruğa qədər dalğavari formada ötürülür və bədənin koordinasiyalı şəkildə hərəkəti təmin edilir.



## Quyruğun uzmədə rolu

Üzən balığın onurğası yerdə qıvrılaraq sürünən ilan kimi dayanmadan sağa-sola qıvrılır. Balığın üzməsi üçün quyruğunu sağa-sola hərəkət etdirməsi kifayətdir. Normal halda, quyruq bir istiqamətdə büküldükdə balığın ön tərəfi arxa tərəfin əksi istiqamətində eyni şiddətlə tullanmalıdır. Ancaq belə olmur. Çünki balıqların ön tərəfi bu təsir qüvvəsini aradan qaldıracaq şəkildə yaradılmışdır. Eyni zamanda, su hərəkət zamanı baş tərəfə şaquli qüvvə ilə təsir edir. Bütün bunlar baş hissənin su içində dalğavari hərəkətinin quyruq hissədəkindən daha az olmasına səbəb olur. Balığın irəliyə doğru hərəkət sürəti üzgəcin balığın onurğasından keçən xəttin sağ və soluna gedib-gəlmə sürəti ilə birbaşa əlaqədardır.

## Balıq dərisi suda niyə korlanmır?

İnsan suyun içində müəyyən müddət qaldıqda dərisi zədələnir və bu müddət artdıqca dərisində əmələ gələn büzüşmələr artır. Halbuki, balıqlar daima suyun içində olmalarına baxmayaraq, heç zərər görmürlər. Üst dərilərindəki bərk parlaq təbəqə sayəsində suyun balığın dərisinə daxil olması və dərisinə mənfi təsir etməsinin qarşısı alınır. Balıqların üst dərisində keratinə (dərinin alt təbəqələrindəki yaşlı hüceyrələrin ölməsi və yerlərini gənc hüceyrələrə verməsi nəticəsində əmələ gələn bərk, möhkəm maddə) bənzər təbəqə də var. Bu təbəqə suyun bədənə daxil olmasına mane olaraq balığın bədənindəki daxili təzyiq ilə xarici mühitin təzyiqini tarazlayır. Əgər bu təbəqə olmasaydı, içəriyə daxil olan su balığın bədənindəki təzyiqin müvazinətini pozardı. Bu da balığın ölümü ilə nəticələnərdi. Çünki balıqların sudakı hərəkətini asanlaşdıran bir çox sistem var və bunlardan biri olmadan digəri işə yaramaz, ona görə də sistemin bir hissəsindəki çatışmazlıq canlının ölümünə səbəb olur.

## Balıq dərsinin hansı funksiyaları var?

Balıqların bir çoxunun bədənini örtən möhkəm dəri alt və üst təbəqələrdən ibarətdir. Üst dərinin tərkibində selik ifraz edən vəzlər var. Selik sürüşkən və ya yapışqan quruluşa malik olub balığın su içində hərəkəti zamanı sürtünməni ən aşağı səviyyəyə endirir. Bu sürüşkənliyə görə, balıq həm daha sürətlə hərəkət edir, həm də düşmənlərinin balığı tutması çətinləşir. Seliyin başqa xüsusiyyəti isə balığı xəstəlik törədən mikroorqanizmlərdən qorumaqdır.

Təkamül nəzəriyyəsi bircə balıqda belə yaradılış xüsusiyyətlərini açıqlaya bilmir





Selikdə sürüşkən, yapışqan və eyni zamanda, mirkob öldürücü xüsusiyyətlərin olması balıq üçün zəruridir. Bütün bu şərtlərin nəhəng kimya müəssisələrində deyil, balığın dərisinin altındakı bir neçə millimetrlik təbəqədə hasil edilməsi canlıları bütün ehtiyaclarını təmin edən xüsusiyyətlərlə birlikdə yaradan Rəbbimizin varlığının dəlillərindəndir.

Darvinizm canlı varlıqlardakı hər cür möhtəşəm sistem qarşısında süqut edir. Yer üzündəki bütün balıq növləri yuxarıda sadalanan xüsusiyyətlərin hamısına malikdir. Balıqlar milyonlarla ildir heç dəyişmədən daima bu mükəmməl xüsusiyyətlərə malik olublar. Bunu milyonlarla il əvvəl yaşamış balıqların dövrümüzə gəlib çatmış qalıqlarında görmək mümkündür. Dövrümüzdə əldə edilmiş 350 milyondan artıq fosil qalığı bizə milyonlarla dəniz canlısından nümunə verir. Bunların tarixi təqribən 540 milyon il əvvəlki Kembri partlayışına qədər gedib çatır. Bu qalıqların böyük əksəriyyəti dəniz canlılarının milyonlarla il əvvəl də dövrümüzdəkilərlə eyni olduğunu, yəni heç bir dəyişiklik keçirmədiyini göstərir. Bu, o deməkdir ki, balıqlar təkamül keçirməmiş, mükəmməl formada yaradılmışlar. Rəbbimizin üstün güc və qüvvəti Quran ayələrində belə bildirilir:

**... Göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir! Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol !" –deyər, o da olar. (Bəqərə surəsi, 116-117)**



# Bir ayə, Bir açıqlama

## Xeyr, siz dünya həyatını üstün tutursunuz; Axirət isə daha xeyirli və daha sürəklidir.

**(Əla surəsi, 16-17)**

Allah dünyanı cənnəti xatırladan bir çox gözəl nemətlə doldurmuşdur. Lakin bu gözəlliklərlə yanaşı, cəhənnəmə aid olan çatışmazlıq, çirkinlik və qüsurlar da yaratmışdır. Əlbəttə, dünya həyatının qüsurlu olması bu dünyada gözəl şeylər olmaması demək deyil.

Dünyada imtahan mühitinin hikmətinə görə cənnət və cəhənnəmə aid xüsusiyyətlər birlikdədir. Bu şəkildə möminlər həm cənnət, həm də cəhənnəm haqqında təsəvvür əldə edir, həm də dünyadakı qısa və müvəqqəti həyata aludə olmaq əvəzinə qüsursuz, əbədi həyat olan axirətə yönəlirlər. Allah'ın qulları üçün seçib bəyəndiyi həyat da məhz axirət həyatıdır. Axirət Quran ayələrində insanların həqiqi, əbədi yurdu kimi tərif edilir.

Ancaq ayədə də bildirildiyi kimi, bəzi insanlar dünya həyatını axirətdən üstün tuturlar. Bu insanlar dünyada mükəmməl həyat quracaqlarını zənn edirlər. Dünya həyatına xas qüsur və çatışmazlıqları isə adi, təbii xüsusiyyətlər kimi görürlər. Məsələn, xəstə olmaq çox insana təbii gəlir. Eyni şəkildə yorğunluq, əziyyət, sıxıntı kimi məfhumlar da normal qarşılanır. Halbuki, dünya həyatına aid bütün qüsurları Allah çox böyük hikmətlərlə yaratmışdır. İnsan bu hikmətlər üzərində dərindən düşünməli və bunlardan öyüd almalıdır.

Youtube.com/yaradilisaz

# Fosillər Təkamülü TƏKZİB EDİR



XURMA YARPAĞI

FOSİL No: SP1512
YAŞ: 40 milyon il
DÖVR: Eosen
TAPILDIĞI YER: Fransa

Darvinistlərin elmdənkənar iddialarına görə, xurma ağacının, şam ağacının, kaktusun, orxideyanın, qərənfilin, gülün, albalı ağacının, otun, ayıdöşəyinin, qısaca desək, bütün bitkilərin eyni xəyali ortaq əcdadı var. Bu ortaq əcdadın necə quruluşa malik olduğu və bu qədər müxtəlif bitkinin hansı mərhələlərdən keçərək bir-birlərindən fərqlənib dövrümüzdəki formaya düşdüyü suallarını isə təkamülçülər elmi cəhətdən cavablaya bilmirlər. XXI əsrin elm və texnologiya səviyyəsi Kornerin qorxusunun reallaşdırmışdır. Başda fosil qeydləri olmaqla, saysız-hesabsız elmi kəşf təkcə botanika sahəsində deyil, bütün elm sahələrində darvinizmi çıxılmaz vəziyyətdə qoymuşdur. Darvinistlər zorla nəzəriyyələrini dirçəltməyə, qarşılarına çıxacaq suallara cavablar hazırlamağa çalışır, ancaq heç bir elmi cavab tapa bilmirlər.



Dəniz atı

Yaş: 11-5 milyon illik
Tapıldığı yer: İtalya

Bu canlı yaradılmış bütün canlılar kimi milyonlarla ildir ki, heç bir dəyişikliyə məruz qalmayıb. Allah bütün canlıları olduqları kimi qorumuşdur. Bu da təkamülün həyata keçmədiyinin və bütün canlıların uca Allah tərəfindən yaradıldığının sübutudur.

## Kəhraba nədir?

Fosillərin mühafizə edildiyi mühitlərdən biri də kəhrəbaların içidir. Ağaclardan çıxan maye kəhrəbanın canlının üstünə axıb bərkiməsi və canlının o şəkildə mühafizə edilməsi ilə əmələ gələn kəhrəba içindəki fosillər tapılan digər fosillər kimi çox mühüm həqiqəti göstərir: canlılar milyon illərdir heç bir dəyişikliyə məruz qalmayıb, yəni əsla təkamül keçirməyiblər.